# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

№ 439 May 2024




AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org



**İLK MƏZUNLARLA GÖRÜŞ**

**GRAND ALUMNI HOMECOMING**









(*Ardı səh.6-da*) (*To be continued page 6*)

# İÇİNDƏKİLƏR

İlk məzunlarla görüş ....................6
Xəzər Universitetinin "Brend tələbələr"i ....................12
Xəzər Universitetinin tələbəsi Gənclər Fondunun qrant müsabiqəsinin qalibi olub....................13
Xəzər Universitetinin tələbələri Azərbaycan-2030 və Dayanıqlı İnkişaf Milli Tələbə Müsabiqəsində uğurla iştirak ediblər....................13
"GreenTech" Azərbaycan Startap və Yaşıl Texnologiyalar müsabiqəsi ....................14
Boğaziçi Universitetinin Fizika və Xəzər Universitetinin Riyaziyyat departamentlərinin əməkdaşı "Gənc elm adamı" mükafatına layiq görülüb ....................16
ABŞ: Beynəlxalq Elm və Mühəndislik Müsabiqəsində "Dünya" məktəbi şagirdlərinin uğurları ....................17
"Xəzər"in tələbəsi "Çin dili körpüsü" müsabiqəsinin qalibidir....................18
"Xəzər"in magistrantı Tələbə və Gənc Tədqiqatçıların V Beynəlxalq Elmi Konfransında 2-ci yerə layiq görülüb....................19
"Ozan-Aşıq Mədəniyyəti: Tarixi Köklər, Müasir Yanaşmalar və Perspektivlər" mövzusunda Beynəlxalq Elmi Simpozium ....................20
I Milli Təhsil Zirvəsi keçirilib....................26
Xəzər Universiteti ilə "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi arasında Anlaşma memorandumu imzalanıb....................28
"Xəzər"ə təşəkkür məktubu: Kahramanmaraş Sütçü İmam Universitesi ....................29
Nəsiman Yaqublunun "Məhəmməd Əmin Rəsulzadə: həyat və fəaliyyəti" kitabı nəşr edilib ........31
Respublika Narkoloji Mərkəzin psixoloqu Ramin Allahverdiyev: "Ölkədə bu sahədə yaxşı təcrübə vardır: dörd ildir Xəzər Universitetində "Asılılıq psixologiyası" fənnini tədris edirəm"....................32
Nizami Rayon Polis İdarəsi rəhbər heyətinin tələbələrlə görüşü: "Narkomaniya və onun fəsadları" ....................33
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri....................36
*Hamlet İsaxanlı*. Şahmat ehtirası ....................40
Tam Gənc Basketbol Liqasının universitetlərarası yarışında "Xəzər"in komandası 5-ci yerdə........47
Manisa Celal Bayar Universitetində beynəlxalq konfrans ....................49
"Xəzər"in beynəlxalq əlaqələri....................52
İngilis dili və ədəbiyyatı departamenti 2-ci Milli Ardıcıl Tərcümə Müsabiqəsi keçirdi....................62
Dövlət Akademik Filarmoniyasında aşıq Ramin Qarayevin "Sazımda-avazımda" adlı solo konserti....................66
Xəzər Universiteti Elmi Şurasının növbəti iclası ....................71
Naxçıvan Dövlət Universiteti xəbərləri....................72
*İslam Hüseynov*. Komandirim anamla çəkdirdiyim şəkli ad günümdə mənə hədiyyə etdi....................76

1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Məsul katib:**
Valeh Mirzə

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan
Şahin Fazil

**İngilis dilində** mətnlərin redaktoru:
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

Grand Alumni Homecoming 2024 ....6
"Brand Students" of Khazar University....12
Khazar University Student Wins Youth Fund Grant Competition....13
Khazar University Students Achieve Success in Azerbaijan-2030 and Sustainable Development National Student Competition....13
"GreenTech" Azerbaijan Startup and Green Technologies Competition ....14
Faculty Member of Bogazici University's Physics and Khazar University's Mathematics Departments Receives "Young Scientist" Award....16
USA:"Dunya" School Students' Achievements in International Science and Engineering Fair....17
Khazar University Student is the Winner of "Chinese Language Bridge" Competition....18
Khazar University Graduate Student Takes 2nd Place in 5th International Scientific Conference for Students and Young Researchers ....19
International Scientific Symposium on "Culture of Ozan-ashugh: Historical Roots, Modern Approaches and Perspectives"....20
First National Education Summit Held....26
Khazar University and "Mıras" Social Organization in Support of Studying of Cultural Heritage Signs Memorandum of Cooperation....28
Letter of Thanks to Khazar University: Kahramanmarash Sutchu Imam University
Nasiman Yagublu's Book "Mahammad Amin Rasulzade: Life and Activities" Published....31
Republic Narcology Center's Psychologist Ramin Allahverdiyev: " There is a positive experiences in this domain, i've been instructing "Psychology of Addiction" at Khazar University for four years"....32
Nizami District Police Department Management Team Meets Khazar University Students....33
News of the Institute of ANAS Named after Nizami (*in Azerbaijani*) ....36
*Hamlet Isakhanli*. Passion for Chess (*in Azerbaijani*)....40
Khazar University Team Secures 5th Place in Inter-University Youth Basketball League Competition ....47
International Conference at Manisa Celal Bayar University ....49
"Khazar"s International Relations....52
English Language and Literature Department Holds 2nd National Consecutive Interpretation Contest....
Ramin Garayev's Solo Concert "In My Saz, In My Voice" at the State Academic Philharmonic Orchestra....66
Next Meeting of Khazar University Scientific Council ....71
Nakhchivan State University News....72
*Islam Huseynov*. My Commander gave me a photo of me with my mother on my birthday ....76

It has been published since January 1995

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isakhanli

**Associate editor:**
Alirza Balayev

**Editorial Secretary:**
Valeh Mirza

**Photo:**
Multimedia Centre

Khazar University

Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan
Shahin Fazil

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova

# İLK MƏZUNLARLA GÖRÜŞ





*Hamlet İsaxanlı*

# GRAND ALUMNI HOMECOMING

Xəzər Universiteti Karyera və Məzunlar Mərkəzinin təşkilatçılığı ilə vaxtilə universitetdə təhsil alan, bu gün Azərbaycanda və onun hüdudlarından kənarda müxtəlif vəzifələr tutan, müəyyən mövqeyə malik ixtisaslı, peşəkar kadrlar arasında sıx əlaqələrin qurulması, onlarla əməkdaşlığın möhkəmlənməsi məqsədi ilə mayın 4-də Neftçilər kampusunun

On May 4, the event "Grand Alumni Homecoming" organized by the Career and Alumni Center, was held with the aim of establishing close ties and enhancing cooperation between qualified and professional individuals who once studied at Khazar University, and now hold various positions both within the country and internationally. The




*İsaxan İsaxanlı, Əhməd Həsənov, Ceyhun Məmmədov, Zərifə Əliyeva, Hamlet İsaxanlı, Məmməd Abbasbəyli, Mustafa Abbasbəyli, Elşən Salahov*

Mərmər salonunda ilk məzunlarla görüş keçirilib.

Tədbirə Xəzər Universitetinin 1996-2010-cu illərin müxtəlif ixtisaslar üzrə məzunları, universitet rəhbərliyi, müəllimlər və əməkdaşlar dəvət olunmuşdular. Tədbirə yüzə yaxın məzun olmaqla ümumilikdə 150-dən çox qonaq qatılmışdı. Məzunlar arasında İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak bazarına Nəzarət Xidmətinin rəisi Məmməd Abbasbəyli, Dövlət Məşğulluq Aqentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli, Xəzər Rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov, Milli Məclisin deputatı Ceyhun Məmmədov və digər səlahiyyətli şəxslər də



*Ceyhun Fərzəliyev, Aynurə Cabbarova, Günay Qurbanova*




yer almışdılar. Tədbir iki hissədən ibarət idi.

Məzunlar əvvəlcə illər sonra doğma məkanda tələbə yoldaşları, dostları və müəllimləri ilə görüşərək həyatlarının ən şirin dönəmini, tələbəlik illərini xatırlamaq, uğur hekayələrini bölüşmək imkanı əldə etdilər. Sonra tədbir iştirakçıları Mərmər salona dəvət olundular.

Karyera və Məzunlar Mərkəzinin direktoru Zərifə Əliyeva tədbir iştirakçılarını salamyaraq, məzunları yenidən tələbəlik illərinə qaytarmaq üçün keçən günləri əks etdirən videoçarxa baxmağa

*(Ardı səh.8-də)*

event took place in the Marble Hall. Graduates of Khazar University from 1996-2010 in various specialties, University management, faculty and staff were invited to the event. More than 150 guests, including about a hundred graduates, participated in the event. M Abbasbeyli, the head of the Antimonopoly and Consumer Market Control Service under the Ministry of Economy, M. Abbasbeyli, the chairman of the Board of the State Employment Agency, E. Salahov, the head of the Khazar region Executive Power, J.

*(To be continued page 8)*



*İradə Xəlilova, Firəngiz Nəsirova, Famin Məmmədov*

Mammadov, a deputy of the Milli Majlis, and other authorized persons were among the graduates. The event consisted of a networking and artistic component. Graduates of Khazar University from 1996-2010 across various specialties, along with university management, faculty, and staff, were invited to the event. Over 150 guests attended, including around 100 graduates. Notable attendees among the graduates included M. Abbasbeyli, head of the Antimonopoly and Consumer Market Control State Service under the Ministry of Economy, M. Abbasbeyli, chairman of the Board of the State Employment Agency, E. Salahov, head of the Khazar region Executive Power, J. Mammadov, a deputy of the Milli Majlis, among other officials. The event featured both networking and artistic parts.



*Nigar Yeganlı, Ruhiyyə Haytaoğlu, Lamiyə Xəlilova, Xəyalə Ələkbərova, Zülfiyyə Mahmudova, Vəfa Cəfərova*

dəvət etdi. O, çıxışında məzunların universitet üçün nə qədər dəyərli olduqlarını vurğuladı, onları universitetlə əlaqələrini möhkəmlətməyə və əməkdaşlığa çağırdı.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və

During the networking part of the event, graduates had the opportunity to meet their fellow students, friends, and teachers in the place where they had graduated years earlier, remembering their cherished student years and sharing their



*Rəşid Vəlizadə, Natella Barkaya, Məmməd Abbasbəyli*



*Firəngiz Nəsirova, Şahsənəm Şahmuradova,*
*Hamlet İsaxanlı, Arifə Həsənova, İlahə Hüseynova*

Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı ali təhsil müəssisələrinin gənclərin həyatındakı əhəmiyyətindən, məzunlara qarşı olan sevgisindən danışdı. "Evdəki övladlarımın sayını bilirəm, "Xəzər"dəki övladlarımın sayını bilmirəm, çoxdurlar!"- dedi. Onun səmimi çıxışı alqışlarla qarşılandı.

*(Ardı səh.10-da)*

success stories. Later, the participants were invited to the Marble Hall for the artistic segment of the event.

Director of the Career and Alumni Center, Zarifa Aliyeva, welcomed the event participants and invited them to watch a video reminiscing about their student years. In her address, she

*(To be continued page 11)*




*Samir Həmzəyev, Zərifə Əliyeva, Hamlet İsaxanlı, Kəmalə Bəbirova*



*Leyla Cəfərova, Pərviz Tahirov*

Məzunlar adından İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak bazarına Nəzarət Xidmətinin rəisi Məmməd Abbasbəyli çıxış edərək, Xəzər Universitetinin onun və digər məzunların həyatında buraxdığı izdən, tələbəlik illəri ilə bağlı xatirələrindən danışdı.

Çıxışlardan sonra C.Cabbarlının "Sevil" pyesinin motivləri əsasında dünya şöhrətli bəstəkar Fikrət Əmirovun eyni adlı operası nümayiş olundu. Tamaşanın bədii rəhbəri Xəzər Universiteti Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova, əsas rolların ifaçıları isə universitetin müxtəlif illər və ixtisaslar üzrə məzunları idilər. Onların peşəkar ifaları da alqışlarla müşayiət olundu.

Sonda xatirə şəkilləri çəkildi.



highlighted the graduates' significance and value to the university. She also encouraged the graduates to continue strengthening their ties with the university and to cooperate further.

The founder of Khazar University and Chairman of the Board of Directors and Trustees, Prof. Acad. Hamlet Isakhanli, spoke to the event participants. He highlighted the crucial role of higher education institutions in the lives of young people and expressed his affection for the graduates. "I know the number of my children at home, but I don't know the number of my children at Khazar; they are many!" he remarked. The academician's heartfelt and affectionate speech received applause.

Speaking on behalf of the graduates, M. Abbasbeyli, head of the Antimonopoly and Consumer Market Control State Service under the Ministry of Economy, spoke about the impact Khazar University left on his and other graduates' lives, and shared memories of their student years.

After all the speeches, the opera "Sevil," written by world-famous composer Fikret Amirov and based on motifs from J. Jabbarli's play of the same name, was performed. The artistic director of the performance was Zulfiyya Sadigova, the head of Khazar University's Music and Art Department and an honored teacher. The main roles were performed by graduates from various years and majors. Their professional performances were met with great enthusiasm and applause.

At the end, memory photos were taken.




*Elvin Əliyev* *Elçin Feyzullayev*

# XƏZƏR UNİVERSİTETİNİN "BREND TƏLƏBƏLƏR"İ

# "BRAND STUDENTS" OF KHAZAR UNIVERSITY



Azedu.az Təhsil Portalı tələbələr arasında sağlam rəqabətlilik mühiti yaratmaq, fəal gəncləri daha geniş müstəvidə tanıtmaq məqsədilə ekspert komissiyasının hazırladığı meyarlar əsasında hər universitetdən 2022-2023-cü tədris ili üçün "Brend tələbə" seçilməsi ilə əlaqədar 24 universitetə müraciət etmişdir. Siyahılar Azedu.az-a göndərilib və ictimaiyyətə təqdim olunur.



**Hüseyn Musayev** - *Təbiət elmləri və mühəndislik fakültəsi, Mexanika mühəndisliyi, II kurs*

**Huseyn Musayev** - *School of Sciences and Engineering, Mechanical Engineering, II year*

**Aysu Məmmədli** - *Təbiət elmləri və mühəndislik fakültəsi, Elektrik və elektronika mühəndisliyi, II kurs*

**Aysu Mammadli** -*School of Natural Sciences and Engineering, Electrical and Electronics Engineering, II year*



Azedu.az Education Portal applied to 24 universities to select "Brand students" from each university for the 2022-2023 academic year based on the criteria prepared by the expert commission in order to create a healthy competitive environment among students and promote active young people on a wider level.The lists were sent to Azedu.az and made available to the public.



**Aişə Bəşirli** - *Təbiət Elmləri və mühəndislik fakültəsi, Kimya-biologiya müəllimliyi, IV kurs*

**Aisha l Bashirli** -*School of Natural Sciences and Engineering, Chemistry-Biology Education, IV year*

**Zöhrə Məmmədova** - *Humanitar, təhsil və sosial elmlər fakültəsi, Politologiya, III kurs*

**Zohra Mammadova**-*School of Humanities, Education and Social Sciences, Political Science, III year*



**Abdulla Nuriyev** - *İqtisadiyyat və menecment, İqtisadiyyat, II kurs*

**Abdulla Nuriyev** -*School of Economics and Management, Economics, II year*



**Jalə Məmmədova** - *İqtisadiyyat və menecment, Turizm işinin təşkili, II kurs*

**Jala Mammadova** - *School of Economics and Management, Tourism Management, II year*



**Ülkər Hüseynli** -*İqtisadiyyat və menecment, Menecment, III kurs*

**Ulkar Huseynli** - *School of Economics and Management, Management, III year*



Aygün Muradova

# XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏSİ GƏNCLƏR FONDUNUN QRANT MÜSABİQƏSİNİN QALİBİ OLUB

# KHAZAR UNIVERSITY STUDENT WINS YOUTH FUND GRANT COMPETITION

Təbiət elmləri və mühəndislik fakültəsinin kimya və biologiya ixtisası üzrə təhsil alan II kurs tələbəsi Aygün Muradova 2024-cü il aprelin 19-da Gənclər Fondunun elan etdiyi "İdeyanı reallaşdır -2023" gənclərin fərdi layihələri üzrə qrant müsabiqəsinin qalibi olub. Aygün Muradova müsabiqədə "Sağlam yaşama səyahət" adlı layihə ilə iştirak edib və uğur qazanıb.

On April 19, Aygun Muradova, a second-year student in the School of Science and Engineering majoring in chemistry and biology, won the "Make the Idea real -2023" grant competition for individual youth projects, announced by the Youth Fund. Aygün Muradova participated in the competition with her project "Jour ney to a Healthy Life" and was successful.

# XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ "AZƏRBAYCAN-2030 VƏ DAYANIQLI İNKİŞAF" MİLLİ TƏLƏBƏ MÜSABİQƏSİNDƏ UĞURLA İŞTİRAK EDİBLƏR

# KHAZAR UNIVERSITY STUDENTS ACHIEVE SUCCESS IN AZERBAIJAN-2030 AND SUSTAINABLE DEVELOPMENT NATIONAL STUDENT COMPETITION

Aprelin 26-28-də Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzində keçirilən "Azərbaycan-2030 və Dayanıqlı İnkişaf" Milli Tələbə Müsabiqəsində Təbiət elmləri və mühəndislik fakültəsinin Kimya və biologiya, Kompüter elmləri

*(Ardı səh.14-də)*

Students from the School of Science and Engineering specializing in Chemistry and Biology, Computer Science, and Computer Engineering-Shafa Yusifova, Aisha Bashirli, Afat Ahmadova, Ilkin Aliyev, Aygun Muradova, Aysel Imamverdiyeva, Aysu Mam-

*(To be continued page 14)*



*Şəfa Yusifova, Aysu Məmmədova, Ruslan Rəcəbli, İlkin Əliyev, Aişə Bəşirli, Afət Əhmədova, Aygün Muradova, Aysel İmamverdiyeva, Xumar Məcidova*

və Kompüter mühəndisliyi ixtisasları üzrə təhsil alan tələbələri Şəfa Yusifova, Aişə Bəşirli, Afət Əhmədova, İlkin Əliyev, Aygün Muradova, Aysel İmamverdiyeva, Aysu Məmmədova, Aydan Bayramova, Ruslan Rəcəbli və Xumar Məcidova komanda şəklində təmsil olunublar. Onlar ölkədəki kənd təsərrüfatına töhfə verəcək, həmçinin elmi tədqiqatçıların və fermerlərin birgə işinin stimullaşdırılması istiqamətində əhəmiyyət kəsb edəcək "AGROTOPIA" layihəsini təqdim edərək, 30 komanda arasında 5-ci yeri qazanıblar.

madali, Aydan Bayramova, Ruslan Rajabli, and Khumar Majidova-represented Khazar University as a team at the "Azerbaijan 2024 and Sustainable Development" National Student Competition held on April 26-28 at Baku State Industry and Innovation Vocational Training Center. They secured 5th place among 30 teams with their presentation of the "AGROTOPIA" project, which aims to contribute to agriculture in the country and promote collaboration between scientific researchers and farmers.

# "GREENTECH" AZƏRBAYCAN STARTAP VƏ YAŞIL TEXNOLOGİYALAR MÜSABİQƏSİ

# "GREENTECH" AZERBAIJAN STARTUP AND GREEN TECHNOLOGIES COMPETITION

Mayın 1-də və 2-də Azərbaycan Texnologiya Universitetinin İnnovasiyalar Mərkəzinin təşkilatçılığı ilə "GreenTech" Azərbaycan Startap və Yaşıl Texnologiyalar müsabiqəsi keçirilib. Müsabiqə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 fevral 2021- ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişafa Dair Milli Prioritetlər" sənədinə, eləcə də 2024-cü ilin "Yaşıl Dünya Naminə

On May 1-2, "GreenTech" Azerbaijan Startup and Green Technologies competition was held under the organization of Innovation Center of Azerbaijan University of Technology. This event aligned with the goals outlined in the "Azerbaijan 2030: National Priorities for Socio-Economic Development" document approved by the decree of the President of the Republic of Azerbaijan Ilham




*Turan Hüseynzadə, Leyla Yusifzadə, Cavidan Şükürov*

Həmrəylik İli" elan edilməsi haqqında sərəncamına uyğun olaraq təşkil olunmuşdu.

Məqsəd Azərbaycanda texnoloji yeniliklər və yaşıl texnologiyalar istiqamətində inkubasiya mühitinin inkişafına dəstək olmaq idi. Müsabiqə "Robototexnika müsabiqəsi", "Enerji sistemləri mühəndisliyi ilə bağlı olan layihələr", "Davamlılıq üçün Sİ müsabiqəsi", "Mexatronika müsabiqəsi", "İnsanlıq naminə olan texnologiyalar ilə bağlı olan layihələr" olmaqla bütövlükdə 5 kateqoriyaya bölünmüşdü.

Komandalar müsabiqə prosesində öz ideyalarını sərgi formatında təqdim edir, maraqlanan şəxslərə öz layihələri haqqında ətraflı məlumat verirdilər. Sonda layihəni qiymətləndirən şəxslər ayrı-ayrı komandalara yaxınlaşaraq, hər kateqoriya üzrə 1, 2 və 3-cü yerləri seçməyə başladılar. 66 komandanın iştirak etdiyi müsabiqədə Xəzər Universitetini Kimya mühəndisliyi ixtisasında təhsil alan 2 və 3-cü kurs tələbələri Turan Hüseynzadə, Leyla Yusifzadə və Cavidan Şükürov təmsil edirdilər. Onlar "Enerji sistemləri mühəndisliyi ilə bağlı olan layihələr" kateqoriyası üzrə iştirak edən komandalar arasında 3-cü yerə layiq görülərək, 200 manat dəyərində mükafat qazandılar. Tədbirin sonunda AzərSun şirkəti tərəfindən hər bir iştirakçıya hədiyyələr təqdim olundu.

Aliyev and the 2024 "Green Growth" and "For a Green World" initiatives. It was held according to the decree on declaring the Year of Solidarity. The competition aimed to foster the development of an incubation environment for Technological Innovations and Green Technologies in Azerbaijan. The competition was divided into five categories: "Robotics Competition," "Projects Related to Energy Systems Engineering," "CI Competition for Sustainability," "Mechatronics Competition," and "Projects Related to Technologies for the Benefit of Humanity." During the event, teams showcased their ideas in an exhibition format and provided detailed information about their projects to interested attendees. At the conclusion, project assessors evaluated the teams and awarded 1st, 2nd, and 3rd places in each category. Khazar University was represented by Turan Huseynzadeh, Leyla Yusifzadeh, and Javidan Shukurov, 2nd and 3rd year students majoring in chemical engineering in this competition, in which 66 teams participated. They won a prize worth 200 manats. At the end of the event, AzerSun company presented gifts to the contestants.



*İlmar Qəhrəmanov*

# BOĞAZİÇİ UNİVERSİTETİNİN FİZİKA VƏ XƏZƏR UNİVERSİTETİNİN RİYAZİYYAT DEPARTAMENTLƏRİNİN ƏMƏKDAŞI "GƏNC ELM ADAMI" MÜKAFATINA LAYİQ GÖRÜLÜB

# FACULTY MEMBER OF BOGAZICI UNIVERSITY'S PHYSICS AND KHAZAR UNIVERSITY'S MATHEMATICS DEPARTMENTS RECEIVES "YOUNG SCIENTIST" AWARD

Boğaziçi Universitetinin Fizika və Xəzər Universitetinin Riyaziyyat departamentlərinin əməkdaşı, fizika üzrə fəlsəfə doktoru İlmar Qəhrəmanov Türkiyədə qeyri-hökumət təşkilatı olan Elm Akademiyasının "Gənc elm adamı" mükafatına layiq görülüb Akademiyanın Mükafat komitəsi Türkiyədə fəaliyyət göstərən gənc elm adamları arasından ən istedadlılarını və gələcək fəaliyyətində də uğur qazanacağı bəlli olanları seçməyi hədəfləyir. Qaliblərə elmi tədqiqatlarında kömək məqsədilə təqaüd də verilir.

İlmar Qəhrəmanov riyazi və nəzəri fizikanın yüksək enerji fizikası, supersimmetriya, sim nəzəriyyəsi və inteqrallanan sistemlər kimi sahələr üzrə mütəxəssisdir. 2019-cu ildən Boğaziçi Universitetində çalışan İlmar Qəhrəmanov fəlsəfə doktoru (PhD) elmi dərəcəsini Almaniyanın Berlin Humboldt Universitetində alıb, Potsdamda Maks-Plank Cəmiyyətinin Albert Eynşteyn adına Qravitasiya Fizikası İnstitutunda iki il post-doktorant kimi çalışıb.

İlmar Qəhrəmanov, həmçinin, Xəzər Universitetinin Riyaziyyat departamentində çalışır və universitetdə fəaliyyət göstərən Riyaziyyat və Onun Tətbiqləri Elmi Tədqiqat Mərkəzinin üzvüdür.

"Azərbaycan" qəzetində İlmar Qəhrəmanov haqqında məqalə dərc olunub:

Ilmar Gahramanov, an employee of Bogazici University's Physics and Khazar University's Mathematics Departments, PhD in Physics, was awarded the "Young Scientist" award of the Science Academy, a non-governmental organization in Türkiye. The Academy's Award Committee seeks to recognize the most talented young scientists working in Türkiye who are expected to achieve significant success in their future endeavors. The award also includes a scholarship to support the winners' scientific research. Ilmar Gahramanov is an expert in areas of mathematical and theoretical physics such as high energy physics, supersymmetry, string theory and integrable systems.

Ilmar Gahramanov, who has been working at Bogazici University since 2019, received his PhD from the Humboldt University of Berlin, Germany, and worked as a post-doctoral student at the Albert Einstein Institute of Gravitational Physics of the Max Planck Society in Potsdam for two years. Ilmar Kahramanov also works in the Mathematics Department of Khazar University and is a member of the Center for Mathematics and its Applications operating at the university.

"Azerbaijan" newspaper published an article about Ilmar Gahramanov.

***https://www.azerbaijan-news.az/az/posts/detail/azerbaycanli-alim-turkiyede-ilin-genc-elm-adami-secildi-1716853170***

# ABŞ: BEYNƏLXALQ ELM VƏ MÜHƏNDİSLİK MÜSABİQƏSİNDƏ "DÜNYA" MƏKTƏBİ ŞAGİRDLƏRİNİN UĞURLARI

# USA:"DUNYA" SCHOOL STUDENTS' ACHIEVEMENTS IN INTERNATIONAL SCIENCE AND ENGINEERING FAIR



*Səid Aslanov*



*İbrahim Allahverdiyev*

Azərbaycan məktəbliləri ilk dəfə olaraq ABŞ-ın Kaliforniya şəhərində 11-17 may tarixlərində keçirilən Beynəlxalq Elm və Mühəndislik Müsabiqəsində (ISEF) iştirak edib, uğur qazanıblar.

Xəzər Universitetinin "Dünya" IB Məktəbinin X sinif şagirdləri Səid Aslanov və İbrahim Allahverdiyev birgə hazırladıqları layihəyə görə "Biotibb və sağlamlıq elmləri" kateqoriyası üzrə bürünc medal əldə ediblər. Bundan başqa, həmin məktəbin X sinif şagirdi Nicat Tağızadə və komanda yoldaşı - 132-134 nömrəli təhsil kompleksinin X sinif şagirdi Xəzər Hüseynov isə "Robotika" kateqoriyası üzrə xüsusi mükafata layiq görülüblər.

*"Azəraycan müəllimi"* qəzeti və saytı da bu barədə xəbər yayımlayıb.

***https://muallim.edu.az/news.php?id=30190***

Azerbaijani schoolchildren participated for the first time in the International Science and Engineering Fair (ISEF) held in California, USA, from May 11-17 and achieved success. Said Aslanov and Ibrahim Allahverdiyev, 10th-grade students at Khazar University's "Dunya" IB School, won a bronze medal in the "Biomedicine and Health Sciences" category for their collaborative project.



*Nicat Tağızadə*

Additionally, Nijat Tagizade, a 10th-grade student from the same school, along with Khazar Huseynov, a 10th-grade student from Educational Complex No. 132-134, received a special prize in the "Robotics" category.

The newspaper "*Azerbaycan Teacher*" and its website also reported on this news.

***https://muallim.edu.az/news.php?id=30190***

# "XƏZƏR"İN TƏLƏBƏSİ "ÇİN DİLİ KÖRPÜSÜ" MÜSABİQƏSİNİN QALİBİDİR




*Şahin Pənahov, Xəyalə Məmmədova, Dinq Tao*

# KHAZAR UNIVERSITY STUDENT IS THE WINNER OF "CHINESE LANGUAGE BRIDGE" COMPETITION

Mayın 21-də Bakı Dövlət Universitetinin Konfutsi Mərkəzi və Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyinin birgə təşkilatçılığı ilə XXIII "Çin dili körpüsü" beynəlxalq müsabiqəsi çərçivəsində "Çin dili körpüsü" müsabiqəsi keçirilib.

Müsabiqədə ölkənin müxtəlif ali təhsil ocaqlarından Çin dilini öyrənən tələbələr iştirak ediblər. İştirakçılar dil bilikləri ilə yanaşı rəqs, rəsm, mahnı və aktyorluq kimi istedadlarını da sərgiləyiblər.

Müsabiqədə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı səfirliyinin müvəqqəti işlər vəkili Dinq Tao, BDU-nun beynəlxalq əlaqələr üzrə prorektoru Şahin Pənahov, Şərqşünaslıq fakültəsinin dekanı Aydan Xəndan, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov, BDU-da fəaliyyət göstərən Konfutsi Mərkəzinin direktoru Vanq Haoqianq iştirak ediblər.

Müsabiqədə birinci yeri Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin tərcümə (ingilis dili) ixtisası üzrə təhsil alan dördüncü kurs tələbəsi, universitetdəki Konfutsi Mərkəzinin iştirakçısı Xəyalə Məmmədova, ikinci yeri BDU-nun Şərqşünaslıq fakültəsinin tələbəsi Sevda Məcidli, üçüncü yeri Şərqşünaslıq fakültəsinin tələbəsi Ayla İsmayılova, BDU-nun Konfutsi mərkəzinin tələbəsi Fəridə Süleymanova və Azərbaycan Dillər Universitetinin tələbəsi Fatimə Əliyeva tutublar.

Müsabiqədə birinci yer qazanan Xəyalə Məmmədova Çində keçiriləcək final mərhələdə Azərbaycanı təmsil edəcək.

*AZƏRTAC* İnformasiya Agentliyi, digər xəbər portalları və saytlar bu barədə xəbər yayımlamışlar.

On May 21, the "Chinese Language Bridge" competition took place as part of the XXIII "Chinese Language Bridge" international competition, co-organized by the Confucius Center at Baku State University and the Embassy of the People's Republic of China in Azerbaijan. Students studying Chinese from various higher education institutions across the country attended the competition. Besides demonstrating their language skills, participants showcased talents such as dancing, drawing, singing, and acting. Ding Tao, charge d'affaires of the Embassy of the People's Republic of China in Azerbaijan, Sahin Panahov, vice-rector for International Relations at BSU, Aydan Khandan, dean of the Faculty of Oriental Studies, Rauf Hasanov, head of the International Relations Department, and Wang Haoqiang, director of the Confucius Center at BSU, attended the competition. Khayala Mammadova, a fourth-year student majoring in Translation( English) at Khazar University's School of Humanities, Education, and Social Sciences and a participant at the university's Confucius Center, secured first place. Sevda Majidli, a student from BSU's Faculty of Oriental Studies, took second place. Ayla Ismailova, another student from the Faculty of Oriental Studies, Farida Suleymanova from BSU's Confucius Center, and Fatima Aliyeva from the Azerbaijan University of Languages all tied for third place.

Khayala Mammadova, the first-place winner, will represent Azerbaijan in the final stage to be held in China. *AZERTAC* Information Agency, along with other news portals and websites, reported on the event.

*https://azertag.az/xeber/bdu_da_chin_dili_korpusu_musabiqesi_kechirilib-3014958 və s.*

# "XƏZƏR"İN MAGİSTRANTI TƏLƏBƏ VƏ GƏNC TƏDQİQATÇILARIN V BEYNƏLXALQ ELMİ KONFRANSINDA 2-Cİ YERƏ LAYİQ GÖRÜLÜB




*Arif Rüstəmov, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov*

Aprel - may aylarında Bakı Ali Neft Məktəbində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 101-ci il dönümünə həsr olunmuş "Neft-qaz Geologiyası və mühəndisliyi" Tələbə və Gənc Tədqiqatçıların V Beynəlxalq Elmi Konfransı keçirilmişdir.

Xəzər Universitetinin II kurs magistrantı Arif Rüstəmov "Maşın təlimi üsulları ilə hasilatın proqnozlaşdırılması) ("Production Forecasting Using Machine Learning") mövzusu üzrə "Yer elmləri" ("Subsurface") bölməsində 2-ci yerə layiq görülmüşdür. Onun elmi rəhbəri Xəzər Universitetinin müəllimi Dr. Grigorii Penkov`dur.

Eyni zamanda, Arif Rüstəmov "Geoloji tətbiqlər üçün məsaməliliyin maşın təlimi üsullarına əsaslanan proqnozlaşdırıcı modelləşdirilməsi" ("Machine Learning-Based Predictive Modelling of Porosity for Geological Applications") mövzusu üzrə "Geologiya və Geofizika" ("Geology & Geophysics") bölməsində isə 3-cü yerə də layiq görülmüşdür. Bu mövzu üzrə onun məsləhətçisi isə Xəzər Universitetinin müəllimi Rəşad Nəzərəliyevdir.




# KHAZAR UNIVERSITY GRADUATE STUDENT TAKES 2ND PLACE IN 5TH INTERNATIONAL SCIENTIFIC CONFERENCE FOR STUDENTS AND YOUNG RESEARCHERS

In April - May, the 5th International Scientific Conference of Students and Young Researchers "Oil and Gas Geology and Engineering" dedicated to the 101st anniversary of the birth of national leader Heydar Aliyev was held at the Baku Higher Oil School.

Arif Rustamov, a second-year graduate student of Khazar University, was awarded 2nd place in the " Subsurface " section on the topic "Production Forecasting Using Machine Learning ". Its scientific supervisor is Khazar University teacher Dr. Grigorii Penkov.

At the same time, Arif Rustamov was awarded 3rd place in the "Geology and Geophysics" section on the topic " Machine Learning-Based Predictive Modelling of Porosity for Geological Applications ". His adviser on this topic is Khazar University faculty member Rashad Nazaraliyev.

TİKA
T.C. KÜLTÜR VE TURİZM BAKANLIĞI

ANKARA HACI BAYRAM VELİ ÜNİVERSİTESİ

# “OZAN-AŞIQ MƏDƏNİYYƏTİ: TARİXİ KÖKLƏR, MÜASİR YANAŞMALAR VƏ PERSPEKTİVLƏR” MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ SİMPOZİUM



*Dilbər Zeynalova*



Mayın 23-24-də Xəzər Universitetində TİKA Bakı Proqram Koordinatorluğu, Ankara Hacı Bayram Veli Universiteti, Xəzər Universiteti, UNESCO-nun Türkiyə Milli Komissiyası, Ahmet Yesevi

On May 23-24, an International Scientific Symposium on “Culture of Ozan-ashugh: Historical Roots, Modern Approaches and Perspectives” was held at Khazar University in partnership with TİKA Baku Pro-



*Aşıq Kamandar Lətifoğlu, Aşıq Əfqan Samilov, Ramin Qarayev*

# INTERNATIONAL SCIENTIFIC SYMPOSIUM ON "CULTURE OF OZAN-ASHUGH: HISTORICAL ROOTS, MODERN APPROACHES AND PERSPECTIVES"





*Hamlet İsaxanlı*

adına Uluslararası Türk-Kazak Universiteti və Azərbaycan Aşıqlar Birliyinin tərəfdaşlığı ilə "Ozan-Aşıq Mədəniyyəti: Tarixi Köklər, Müasir Yanaşmalar və Perspektivlər" mövzusunda Beynəlxalq Elmi Simpozium keçirildi.

*(Ardı səh.22-də)*

gram Coordination, Ankara Haji Bayram Veli University, Khazar University, Turkish National Commission for UNESCO, international Turkish-Kazakh University named after Ahmet Yesevi and Azerbaijan Ashugs Union.

*(To be continued page 22)*



*"Bakı-Təbriz" qrupu*



*Muhittin Macit*

Simpoziumda tərəfdaş qurumların nümayəndələri, o cümlədən Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, rəsmi qonaqlar, Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Dağıstan (Rusiya Federasiyası), Qaqauz Yeri (Moldova) və Pakistan alim və mütəxəssisləri iştirak edirdilər.

Mayın 23-də universitetin Mərmər zalında simpoziumun açılışı oldu. Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müdiri, simpoziumun Təşkilat komitəsinin həmsədri Dos. Dilbər Zeynalova giriş sözü söylədi. Açılış toplantısı musiqi ilə (Xəzər Universitetinin Kamera orkestri – bədii rəhbər universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova, "Bakı-Təbriz" qrupu (Güney Azərbaycan) – bədii rəhbər Elman İbrahimi; solist – Aşıq Ramin Qarayev) davam etdi.

Sonra Xəzər Universitetinin təsisçisi, Direk-



*Askar Turganbaev*

Representatives of partner institutions, including management and employees of Khazar University, official guests, scientists and specialists of Azerbaijan, Turkey, Kazakhstan, Uzbekistan, Dagestan (Russian Federation), Gagauz Region (Moldova) and Pakistan participated in the symposium.

On May 23, the symposium was opened in the Marble Hall of the university. Assoc. Prof. Dilbar Zeynalov, head of the Department of Languages and Literatures of Khazar University, co-chairman of the Symposium's Organizing Committee, gave



*Pervin Ergün*

an introductory speech. The opening meeting continued with music (Khazar University Chamber Orchestra - artistic director, head of the university's Music and Art Department, honored teacher, pianist Zulfiya Sadigova, "Baku-Tabriz" group (South Azerbaijan) - artistic director Elman Ibrahimi; soloist - Ashug Ramin Garayev).

Then Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, Muhittin Majit, Culture and Promotion Advisor of the Embassy of the Republic of Türkiye in the Republic of Azerbaijan, TIKA Baku Program Coordinator Hayrettin Ozchelik, former deputy of the Grand National Assembly of Türkiye, folklorist Prof. Dr. Metin Ergun, deputy chairman of the Azerbaijan Ashugs Union, Assoc. Prof. Altay Mammadov, Prof. Dr. Pervin Ergun from Ankara Haji Bayram



*Altay Məmmədov*



*Metin Ergün*

torlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, Türkiyə Cümhuriyyətinin Azərbaycan Respublikasındakı səfirliyinin Mədəniyyət və tanıtım müşaviri Muhittin Macit, TİKA Bakı Proqram koordinatoru Hayrettin Özçelik, Türkiyə Böyük Millət Məclisinin sabiq millət vəkili, folklorşünas Prof. Dr. Metin Ergün, Azərbaycan Aşıqlar Birliyinin sədr müavini dosent Altay Məmmədov, Ankara Hacı Bayram Veli Universitetindən Prof.Dr. Pervin Ergün və Ahmet Yesevi adına Uluslararası Türk-Kazak Universitetindən (Qazaxıstan) Prof. Askar Turganbaev çıxış etdilər.

Çıxışlarda vurğulandı ki, türk xalqlarının yaratdıqları zəngin folklor əsərləri dünya ədəbiyyatının gözəl nümunələridir. Xalqların düşüncə tərzindəki yaxınlıq ilk olaraq folklorda özünü göstərir və bu nümunələrin müqayisəli şəkildə öyrənilməsi və tədqiqi mühüm önəm kəsb edir ki, simpozium da bu məqsədlə keçirilir və qarşılıqlı tədqiqatların inkişafına töhfə verəcəkdir.

Həmin gün Nevşehir Hacı Bektaş Veli Universitetindən Prof. Dr. Bayram Durbilmez`in moderatorluğu ilə Mərmər zalda keçən plenar toplantıda o özü "Dərviş və aşıq sənəti təmsilçilərində ortaq ənənələr: Azərbaycan və Türkiyə sahəsindən ortaq nümunələrlə", Ahmet Yesevi adına Uluslararası Türk-Kazak Universitetindən Prof. Askar Turganbaev "Qazax türkləri mədəniyyətində ozan: keçmişi və buğunu" və Dos. Yar Jan Badini "Qopuz və sazın oxşar və fərqli cə-

*(Ardı səh.24-də)*

Veli University and Prof. Askar Turganbaev from Ahmet Yesevi International Turkish -Kazakh University (Kazakhstan) delivered speeches. In the speeches, it was emphasized that the rich folklore works created by the Turkish people are



*Bayram Durbilmez*

beautiful examples of world literature. The closeness in people's way of thinking first manifests itself in folklore, and the comparative study and research of these examples is of great importance, and the symposium is held for this purpose and will contribute to the development of mutual research.

On the same day, at the plenary session moderated by Prof. Dr. Bayram Durbilmez from Nevs-

*(To be continued page 24 )*



*İradə Xəlilova, Akın Murat Sugurbay*

hətləri" mövzularında məruzələrlə çıxış etdilər.

Simpozium işini "Qurbani", "Yirçi Kazak", "Dadaloğlu", "Manas" və "Aşıq Ələsgər" adlı panel toplantılarında davam etdirdi. Müvafiq olaraq Hacı Bayram Veli Universitetindən Prof. Dr. Pervin Ergün, Bakı Atatürk Mərkəzindən Dos. Nazir Əhmədli, Dağıstan EA Folklor Mərkəzindən Ağarahim Soltanov, AMEA Folklor İnstitutundan Prof. Ramil Əliyev və Bakı Avrasiya Universiteti və Xəzər Universitetinin müəllimi Dos. Elmira Məmmədova-Kekeç və AMEA Folklor İnstitutundan Prof. Füzuli Bayatın moderatorluğu ilə keçən panel toplantılarında 30-a qədər məruzə dinlənildi və müzakirələr aparıldı.

Mayın 24-də Mərmər zalda simpozium çərçivəsində Xəzər Universiteti Mədəni Antropologiya və Folklor İnstitutunun (MAFİ) açılış toplantısı keçirildi.

Prof.Akad Hamlet İsaxanlı çıxışında bildirdi ki, Xəzər Universitetində son vaxtlarda yaradılmağa başlanan yeni institut və elmi tədqiqat mərkəzləri universiteti həm də elmi tədqiqat ocağına çevirmək məqsədinə xidmət edir.

MAFİ-nin koordinatoru, Xəzər Universitetinin müəllimi Dos. Aynur Qəzənfərqızı institutun rəsmi saytını təqdim etdi. MAFİ-nin Türkiyədən olan direktoru Prof.Dr. Ali Duymaz (onlayn) və əməkdaşı Prof.Dr. Bayram Durbilmez institutun uğurla fəaliyyətə başlayacağına əminliklərini bildirdilər.

hehir Hacı Bektash Veli University, he presented "Common Traditions among Representatives of Dervish and Ashug Art: Common Examples from Azerbaijan and Türkiye." Prof. Askar Turganbayev from Ahmet Yesevi International Turkish-Kazakh University spoke on "Kazakh Turkic Ozan in Culture: Past and Present," and Assoc. Prof. Yar Jan Badini delivered a report on "Similar and Different Aspects of Gopuz and Saz."

The symposium continued its work in" Gurbani"," Yirchi Kazak"," Dadaloglu"," Manas "and" Ashug Alasgar " panel meetings. Up to 30 reports were heard and discussed at panel meetings moderated by Prof. Dr. Pervin Ergun from Haji Bayram Veli University, Assoc. Prof. Nazir



*Baxşı İmonjon Aşuroviç*

Ahmadli from Baku Ataturk Center, Agarahim Soltanov from Dagestan Academy of Sciences Folklore Center, Prof. Ramil Aliyev from ANAS Institute of Folklore, Assoc. Prof Elmira Mammadova-Kekech from Baku Eurasian University and Khazar University and Prof. Fuzuli Bayat from ANAS Institute of Folklore accordingly.

On May 24, the opening meeting of Khazar University Institute of Cultural Anthropology and Folklore (ICAF) was held as part of the symposium in the Marble hall. Prof. Acad. Hamlet Isakhanli said in his speech that the new institutes and scientific research centers that have recently been established at Khazar University serve the pur-

Həmin gün Mərmər zalda Beynəlxalq elmi simpoziumun iştirakçıları və qonaqları şərəfinə ozan-aşıq konserti verildi. Konsert universitetin Kamera orkestri və "Bakı-Təbriz" qrupunun müşayiəti, Aşıq Ramin Qarayev, Akın Murat Sugurbay (Qazaxıstan), Baxşı İmonjon Aşuroviç (Özbəkistan), Şahan (Pakistan), Aşıq Kamandar Lətifoğlu və Aşıq Əfqan Samilovun (Gürcüstan) ifaları ilə başa çatdı.

Bununla da "Ozan-aşıq mədəniyyəti: tarixi köklər, müasir yanaşmalar və perspektivlər" mövzusunda Beynəlxalq Elmi Simpozium öz işini yekunlaşdırdı.



*Şahan*

pose of turning the university into a center of scientific research. ICAF coordinator, Khazar University faculty member Assoc. Prof. Aynur Gazanfargizi presented the institute's official website. Director of ICAF from Türkiye Prof. Dr. Ali Duymaz (online) and its employee Prof. Dr. Bayram Durbilmez expressed their confidence in the institute's successful future.

That same day, an ozan-ashug concert was held in honor of the symposium participants and guests. The concert featured performances by Ashug Ramin Garayev, Akin Murat Sugurbay (Kazakhstan), Bakhshi Imonjon Ashurovich (Uzbekistan), Shahan (Pakistan), Ashug Kamandar Latifoglu and Ashug Afgan Samilov (Georgia) accompanied by the chamber orchestra of the university and the "Baku-Tabriz" group . With this, the International Scientific Symposium on "Culture of Ozan-ashugh: Historical Roots, Modern Approaches and Perspectives" concluded its work.



*Məhsəti Azaflı*



*Hamlet İsaxanlı*



# I MİLLİ TƏHSİL ZİRVƏSİ KEÇİRİLİB

Azərbaycan Respublikası Təhsil Cəmiyyəti, "Təhsilli Gələcək" Təhsilin İnkişafı İctimai Birliyi və Xəzər Universitetinin birgə təşkilatçılığı ilə mayın 25-də Xəzər Universitetinin Mərkəz kampusunda Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində Respublika 1-ci Milli Təhsil Zirvəsi keçirilib. Tədbirdə 250-yə yaxın təhsil ictimaiyyəti nümayəndələri iştirak ediblər.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərin xatirəsi sükutla yad edilib.

Tədbirin moderatoru - Azərbaycan Respublikası Təhsil Cəmiyyətinin İdarə Heyətinin üzvü, sənətşünaslıq üzrə fəlsəfə doktoru Dos. Nardanə Yusifova iştirakçıları salamlayıb və sözü Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlıya verib. Hamlet İsaxanlı "Təhsildə dəyişikliklərin idarə olunması" mövzusunda geniş məruzə ilə çıxış edib. Bildirib ki, dünya və tələblər dəyişdiyi üçün təhsildə də dəyişikliklər zəruridir; texnologiya və innovasiyaların tətbiqinə toxunub və dəyişikliklərin idarə olunması ilə əlaqədar mülahizələrini tədbir iştirakçılarının nəzərinə çatdırıb.

Milli Məclisin deputatı Ceyhun Məmmədov çıxışında qeyd edib ki, bu istiqamətdə proseslərin sürətləndirilməsinə ehtiyac var, rəhbər heyətin düzgün seçilməsi, sağlam komandanın yaradılması da əsas faktordur.

# FIRST NATIONAL EDUCATION SUMMIT HELD

The 1st National Education Summit of the Republic was held on May 25, 2024 at the Downtown Campus of Khazar University in the Fikret Amirov Conference-Concert Center, jointly organized by the Education Society of the Republic of Azerbaijan, "Educational Future" Education Development Public Union and Khazar University. About 250 representatives of the educational community attended the summit.

After the National Anthem of the Republic of Azerbaijan was played, attendees observed a moment of silence to honor the martyrs who died for the territorial integrity of Azerbaijan. The event's moderator, Assoc. Prof. Nardana Yusifova, a member of the Board of the Education Society of the Republic of Azerbaijan and Doctor of Philosophy in Art Studies, welcomed the participants and introduced Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University and chairman of the Board of Directors and Trustees. H.Isakhanli gave an extensive report on "Management of Changes in Education," emphasizing the necessity of educational changes due to evolving global demands and the importance of incorporating technology and innovations. Jeyhun Mammadov, a deputy of the Milli Majlis, highlighted the urgency of accelerating these processes and stressed that



*Ceyhun Məmmədov*



*Murad Ağalarov*



*Pərvin Kərimzadə*

Sonra Sumqayıt Dövlət Universitetinin rektoru Rüfət Əzizov, Milli Məclisin deputatı Pərvin Kərimzadə, "Təhsilli Gələcək" Təhsilin İnkişafı İctimai Birliyinin sədri Sona Əliyeva çıxış ediblər.

Nəzərə çatdırıblar ki, təhsildə əsas amillərdən biri də sağlam maliyyə sistemidir, xərclərin düzgün idarə olunması çox önəmlidir. Rəhbər heyətin düzgün seçilməsi, sağlam komandanın yaradılması da əsas şərtdir.

Tədbirin bədii hissəsində Əməkdar artist Fərqanə Qasımovanın ifası dinlənilib.

Sonda Azərbaycan Respublikası Təhsil Cəmiyyəti İdarə Heyətinin sədri Murad Ağalarov çıxış edərək tədbir iştirakçılarına minnətdarlığını bildirib və sertifikatlar təqdim edilib.

*AZƏRTAC* İnformasiya Agentliyi, xəbər portalları və saytlar zirvə haqqında xəbər yayımlayıblar.

selecting the right management team and creating a healthy team are crucial factors.

Then, Rector of Sumgayit State University Rufat Azizov, MP Parvin Karimzade, and Chairman of the Education Development Public Union "Educational Future" Sona Aliyeva spoke.

Honored artist Fargana Gasimova performed during the artistic part of the event.

In conclusion, Murad Agalarov, Chairman of the Board of the Education Society of the Republic of Azerbaijan, delivered a speech expressing gratitude to the event participants.

Certificates were presented to the participants.

News about the summit was published by *AZERTAC* Information Agency, as well as various news portals and websites.

*https://azertag.az/xeber/i_milli_tehsil_zirvesi_kechirilib-3022798 və s.*




*Sona Əliyeva*



*Rüfət Əzizov*



*Fariz Xəlilli* *İradə Xəlilova*

## XƏZƏR UNİVERSİTETİ İLƏ "MİRAS" MƏDƏNİ İRSİN ÖYRƏNİLMƏSİNƏ KÖMƏK İCTİMAİ BİRLİYİ ARASINDA ANLAŞMA MEMORANDUMU İMZALANIB

## KHAZAR UNIVERSITY AND "MIRAS" SOCIAL ORGANIZATION IN SUPPORT OF STUDYING OF CULTURAL HERITAGE SIGNS MEMORANDUM OF COOPERATION

Mayın 1-də "MİRAS" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi ilə Xəzər Universiteti arasında Anlaşma memorandumu imzalanıb. Tədbirdə Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova, İctimai Birliyin idarə heyətinin sədri Fariz Xəlilli, idarə heyətinin üzvləri Qafar Cəbiyev, Şikar Qasımov, Məleykə Hüseynova və Xəzər Universitetinin layihə meneceri Səlimə Əhmədova iştirak ediblər.

Memorandumda universitet tələbələri arasında elmi-praktiki məlumatların inkişafının təmin edilməsi, həmçinin sosial məsuliyyəti artıran layihələrin icrası, PICASP layihəsi çərçivəsində yaranmış əməkdaşlığın möhkəmləndirilməsi və davam etdirilməsi məqsədilə mütəmadi görüşlərin keçirilməsi, birgə tədbirlərin təşkili, universitetin tələbələrinin bilik və bacarıqlarının davamlı inkişafının təmin edilməsi ilə bağlı layihələrin birgə icrası məqsədilə qarşılıqlı maraq kəsb edən sahələrdə əməkdaşlıq edilməsi nəzərdə tutulub.

Memorandumda qeyd olunan proseslərin ən qısa zamanda həyata keçirilməsi üçün hər iki tərəfin müvafiq struktur bölmələri arasında, eləcə də tələbələrlə davamlı görüşlərin keçirilməsinin vacibliyi ilə bağlı əməkdaşlığın faydalı olacağına əminlik bildirilib.

On May 1, a memorandum of understanding was signed between Khazar University and the "MIRAS" Social Organization in Support of the Study of Cultural Heritage. Participants in the event included Khazar University's Rector, Assoc. Prof. Irada Khalilova, the chairman of the social organization's board, Fariz Khalilli, and board members Gafar Jabiyev, Shikar Gasimov, Maleyka Huseynova, as well as Khazar University's project manager, Salima Ahmadova.

The memorandum aims to foster the development of scientific and practical knowledge among university students and to implement projects promoting social responsibility. It also seeks to strengthen and continue the cooperation initiated under the PICASP project, organize regular meetings, joint events, and collaborate on projects aimed at enhancing the continuous development of students' knowledge and skills. Collaboration is planned in areas of mutual interest to both parties.

To expedite the implementation of the agreed-upon processes, cooperation between the relevant departments of both organizations is essential, along with the importance of maintaining regular meetings with students.

## "XƏZƏR"ə TƏŞƏKKÜR MƏKTUBU

**Kahramanmaraş Sütçü İmam Universitesi**

Teşekkür belgesi

**Sayın Hamlet İsahanlı**
**Hazar Universitesi Müteveli Heyeti Başkanı**

Üniversitemiz heyeti olarak "Bir millet, iki devlet" şüuruyla, kardeşlik bağlarımızı daha da pekiştirmek ve akademik iş birliği zeminini genişletmek maksadıyla 20-25 Nisan 2024 tarihleri arasında gerçekleştirdiğimiz Azerbaycan ziyaretimizde şahsınız ve üniversiteniz tarafından göstermiş olduğunuz yüksek alaka ve misafirperverliğiniz için teşekkür eder, çalışmalarınızda başarılar dilerim.

**Prof. Dr.Alptekin YASIM**
**REKTÖR**

## LETTER OF THANKS TO KHAZAR UNIVERSITY

**Kahramanmarash Sutchu Imam University**

Certificate of Appreciation

**Dear Hamlet Isakhanli**
**Chairman of the Board of Trustees of Khazar University**

On behalf of our university delegation, guided by the spirit of "one nation, two states," we wish to convey our appreciation for the kind hospitality and generosity shown by you and your university throughout our visit to Azerbaijan from April 20 to 25, 2024, aimed at further strengthening our fraternal bonds and expanding the academic collaboration. We sincerely thank you and wish you continued success in your endeavors.

**Prof. Dr. Alptekin YASIM**
**RECTOR**

## XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMUNDA

## KHAZAR UNIVERSITY STUDENTS AT WORLD INTERCULTURAL DIALOGUE FORUM

Mayın 1-2-sində Bakı Konqres Mərkəzində "Sülh və qlobal təhlükəsizlik naminə dialoq: əməkdaşlıq və qarşılıqlı əlaqə" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib. Tədbir Mədəniyyətlərarası dialoqlarda qadın hüquqlarının təşviqi, Miqrasiya marşrutlarının təkmilləşdirilməsi, İpək yolu proqramının müasir trendləri, Münaqişədən sonrakı dövrlərdə mədəniyyətin dirçəldilməsi və qorunması üçün davamlı sülhün təmin edilməsi və digər mövzularda baş tutan panel sessiyalardan ibarət olub.

Forumda Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Turan Əlizadə və universitetin əcnəbi tələbələri iştirak ediblər

On May 1-2, the VI World Intercultural Dialogue Forum on "Dialogue for Peace and Global Security: Cooperation and Interaction" took place at the Baku Congress Center. The event featured panel sessions on topics such as promoting women's rights in intercultural dialogues, improving migration routes, modern trends of the Silk Road program, and ensuring sustainable peace for the revival and preservation of culture in post-conflict periods.

Turan Alizadeh, coordinator of Khazar University's International Relations Department, along with foreign students from the university, attended the forum.




# TƏLƏBƏLƏR QOBUSTAN DÖVLƏT TARİXİ-BƏDİİ QORUĞUNDA

# STUDENTS AT GOBUSTAN STATE HISTORICAL AND ARTISTIC RESERVE

Mayın 5-də Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin I kurs tələbələri Tarix və arxeologiya departamentinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Yaqub Məmmədovun rəhbərliyi ilə Qobustan Dövlət Tarixi-Bədii Qoruğuna ekskursiya səfəri ediblər.

Yaqub Məmmədov tələbələrə Qobustan abidəsinin tədqiqi, dünyada yeri haqqında ətraflı məlumat verib. Muzey ilə tanışlıq tələbələrin əldə etdikləri nəzəri biliklərin möhkəmləndirilməsinə xidmət edib və onlarda dərin təəssürat yaradıb.

On May 5, first-year students of the School of Science and Engineering of Khazar University went on an excursion to the Gobustan State Historical-Artistic Reserve guided by Yagub Mammadov, PhD in History and lecturer in the Department of History and Archeology.

Yagub Mammadov provided the students with detailed information about the Gobustan monument and its global significance. The visit to the museum helped strengthen the students' theoretical knowledge and made a deep impression on them.



# NƏSİMAN YAQUBLUNUN “MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ: HƏYAT VƏ FƏALİYYƏTİ” KİTABI NƏŞR EDİLİB




# NASIMAN YAGUBLU'S BOOK "MAHAMMAD AMIN RASULZADE: LIFE AND ACTIVITIES" PUBLISHED

“Qanun” nəşriyyatında Xəzər Universitetinin müəllimi, tarix elmləri doktoru, professor Nəsiman Yaqublunun “Məhəmməd Əmin Rəsulzadə: həyat və fəaliyyəti” kitabı işıq üzü görüb.360 səhifədən ibarət kitabda M.Ə.Rəsulzadənin həyatı və fəaliyyəti ilə bağlı bilgilər elmi əsaslarla, sənəd və faktlarla oxuculara təqdim edilib. Kitabın sonunda M.Ə.Rəsulzadə haqqında rus və ingilis dillərində də məlumatlar verilmişdir.

Professor N.Yaqublunun M.Ə.Rəsulzadə haqqında Azərbaycanda, Türkiyədə, Rusiyada da ensiklopediyaları nəşr edilib və oxucular tərəfindən maraqla qarşılanıb.

The publication of the book " Mahammad Amin Rasulzade: Life and Activities" by Khazar University faculty member, Prof. Nasiman Yagublu, a Doctor of Historical Sciences, was published by the "Qanun" publishing house. This 360-page book provides readers with comprehensive information about M.A. Rasulzade's life and accomplishments, backed by scientific evidence, documents, and factual accounts. Information about M.A. Rasulzade in Russian and English was given at the end of the book.

Professor N. Yagublu's encyclopedias on M.A. Rasulzade have been published in Azerbaijan, Türkiye, and Russia, garnering considerable interest from readers.



Ramin Allahverdiyev

# RESPUBLİKA NARKOLOJİ MƏRKƏZİN PSİXOLOQU RAMİN ALLAHVERDİYEV: "ÖLKƏDƏ BU SAHƏDƏ YAXŞI TƏCRÜBƏ VARDIR: DÖRD İLDİR XƏZƏR UNİVERSİTETİNDƏ "ASILILIQ PSİXOLOGİYASI" FƏNNİNİ TƏDRİS EDİRƏM"

# REPUBLIC NARCOLOGY CENTER'S PSYCHOLOGIST RAMIN ALLAHVERDIYEV: " THERE IS A POSITIVE EXPERIENCES IN THIS DOMAIN, I'VE BEEN INSTRUCTING "PSYCHOLOGY OF ADDICTION" AT KHAZAR UNIVERSITY FOR FOUR YEARS"

Mayın 6-da Bakıvaxtı.az xəbər portalı Respublika Narkoloji Mərkəzin psixoloqu Ramin Allahverdiyev ilə geniş müsahibə dərc etmişdir.

"Bu ilin yanvarına olan məlumata görə, Azərbaycanda narkotikdən əziyyət çəkən 36 659 şəxsin dispanser nəzarətində olduğunu" qeyd edən sayt mütəxəssisə "Narkomaniya ilə necə mübarizə aparmaq olar? Bu sahədə maarifləndirmə metodlarının, psixoloji müalicənin təsiri nə qədərdir?" sualı ilə müraciət edir.

Sualı geniş cavablandıran Ramin Abdullayev maarifləndirmənin zəruriliyini vurğulayaraq qeyd edir ki, ölkədə bu sahədə yaxşı təcrübə vardır: "Dörd ildir Xəzər Universitetində "Asılılıq psixologiyası" fənnini tədris edirəm. Bakı Dövlət Universitetində də keçən ildən "Sabah" qruplarında "Asılılıq psixologiyası" tədris olunur Ümid edirəm ki, növbəti illərdə digər universitetlərimizdə də "Asılılıq psixologiyası" fənninə yer veriləcək."

Müsahibəni *Bakıvaxtı.az*-a istinadla digər saytlar da dərc etmişlər.

On May 6, the Bakutime.az news portal published an comprehensive interview with Ramin Allahverdiyev, a psychologist of the Republic Narcology Center.

The article mentions that as of January this year, 36,659 individuals are under dispensary control due to drug addiction in Azerbaijan . The interviewer asks the expert on strategies to combat drug addiction and the efficacy of educational methods and psychological treatments.

In response, Ramin Abdullayev underscores the importance of education and highlights the country's positive experiences in this domain. He mentions his four-year tenure teaching "Psychology of Addiction" at Khazar University and its recent inclusion in "Sabah" groups at Baku State University. He expresses hope for the subject to be integrated into other universities in the near future.

Various other websites also published the interview with reference to *Bakutime.az*

*https://moderator.az/az/cemiyyet/767014/ramin-allahverdiyev-adamin-ailesi-dailib-evi-yoxdur-amma-bizona-deyirik-ki-iradeli-ol-msahibe/ və s.*

# NİZAMİ RAYON POLİS İDARƏSİ RƏHBƏR HEYƏTİNİN TƏLƏBƏLƏRLƏ GÖRÜŞÜ: "NARKOMANİYA VƏ ONUN FƏSADLARI"





*Ziya Əliyev*

# NIZAMI DISTRICT POLICE DEPARTMENT MANAGEMENT TEAM MEETS KHAZAR UNIVERSITY STUDENTS: "DRUG ADDICTION AND ITS CONSEQUENCES"

Bakının Nizami Rayon Polis İdarəsinin rəhbər heyəti mayın 8-də keçirilən görüşdən əvvəl Universitetin rəhbəri Prof. Akad. Hamlet İsaxanlının qəbulunda olub.

Görüş bütün ictimaiyyəti narahat edən "Narkomaniya və onun Fəsadları", həmçinin "Erkən yaş dövründə nikahların gənclərin həyatına mənfi təsiri" problemlərinə həsr olunmuşdu. Tədbiri giriş sözü ilə açan İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli qonaqları iştirakçılara təqdim etdi.

*(Ardı səh. 34 -də)*

Nizami distric police department management team met with Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University,before the event held on May 8.

The event focused on the issues of "Drug addiction and its consequences" and "The negative impact of early marriages on the lives of young people," which are global concerns today. Director of Public Relations and Media Alovsat Amirbeyli opened the event with an introduction and presented the guests to the participants.

*(To be continued page 34)*










*Elvin Əliyev*

Çıxış edənlər - Bakının Nizami Rayon Polis İdarəsinin rəisi, polis polkovniki Ziya Əliyev, rəis müavini, polis polkovnik - leytenantı Zaur İsayev, idarənin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin rəisi, polis moyoru Natiq Yusifov, idarənin Narkotiklərlə Mübarizə bolməsinin rəisi,polis kapitanı Elvin Əliyev, Veteranlar şurasının sədri Nazim Knyazov, Şura sədrinin müavini Firdövsi





*Xədicə Hüseynova*

Speakers included Chief of Baku Nizami District Police Department, Police Colonel Ziya Aliyev, Deputy Chief, Police Lieutenant Colonel Zaur Isayev, Head of the Department for the Organization of Preventive Work with Minors, Police Major Natig Yusifov, Head of the Anti-Drug Department, Police Captain Elvin Aliyev, Chairman of the Department's Veterans' Council Nazim Knyazov, Deputy Chairman of the Council Firdovsi Bayramov, and Inspector of the Department of Preventive Work with Minors, Police Captain Khadija Huseynova. They spoke about drug addiction, its severe consequences, the impact of early marriage on the future of

Bayramov, eləcə də idarənin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin inspektoru, polis kapitanı Xədicə Hüseynova narkomaniya, onun törətdiyi dəhşətli fəsadlar, erkən nikahın gənclərin gələcək taleyinə vurduğu zərbələr barədə danışdılar və tələbələrə maarifləndirici bilgilər, tövsiyələr verdilər.

Tədbir başa çatandan sonra gənclər üçün xüsusilə ağrılı olan bu mövzu ətrafında tələbələrin sualları mütəxəssislər tərəfindən ətraflı cavablandırıldı.

youth, provided educational information, and offered recommendations to the students.

After the event concluded, experts provided detailed answers to the students' questions about this particularly concerning topic for young people.



*Nazim Knyazov*



**"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU**

# "MƏHƏMMƏD FÜZULİ VƏ SULTAN BAHO: AZƏRBAYCAN VƏ PAKİSTAN ARASINDAKI ƏDƏBİ ƏLAQƏLƏR" MÖVZUSUNDA KONFRANS



Ədəbiyyat İnstitutunda "Məhəmməd Füzuli və Sultan Baho: Azərbaycan və Pakistan arasındakı ədəbi əlaqələr" mövzusunda konfrans keçirilib. Konfransda bir sıra pakistanlı alimlər, müxtəlif elm və təhsil ocaqlarını təmsil edən ziyalılar iştirak ediblər.

Konfransı AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli açıb. Akademik İsa Həbibbəyli qeyd edib ki, bu konfrans Azərbayca-Pakistan əlaqələrinə həsr olunmuş dördüncü konfransdır. İlk konfransı pakistanlı qonağımız olmadan 2017-ci ildə keçirmişdik. Lahor Universiteti ilə həm Bakıda, həm də Lahorda konfranslar keçirmişik. Pakistan Ədəbiyyat Akademiyasının başqanı olmuş professor Yusuf Xuşun da adını çəkmək istərdim.

Akademik İsa Həbibbəyli Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinin qeyd olunması haqqında qərar qəbul etdiyini xatırladıb. Bildirib ki, ölkədə və dünyada Məhəmməd Füzuli konfransları keçirilir. Bu kofrans da Füzulinin 530 illiyinə həsr olunub. Məhəmməd Füzuli XVI əsrdə yaşayıb-yaratmış böyük qəzəl ustadıdır. "Leyli və Məcnun" poeması ona dünya şöhrəti qazandırmışdır. Sultan Baho da Pakistanın Məhəmməd Füzulisidir. Bu gün onların hər ikisinin xidmətlərini müqayisəli şəkildə ilk dəfə Azərbaycan cəmiyyətinə çatdıracağıq. İnstitutumuzda Pakistan mərkəzi də var, orada Pakistana aid çoxlu kitablar toplanıb. Bu konfrans da Pakistan-Azərbaycan elmi-ədəbi əlaqələrinin yeni səhifəsi olacaqdır.

Əlavə edib ki, böyük Azərbaycan şairi Nizami Gəncəvinin davamçısı

İmadəddin Nəsimi əsərlərini üç dildə yazmışdır. Nəsimi ərəb və farsca əsərlər yazsa da, nə ərəbdir, nə də fars, azərbaycanlıdır. İmadəddin Nəsimidən böyük Azərbaycan şairi kimi bəhs etdiklərinə görə qonaqlara təşəkkür edib.

Pakistanlı alimlərdən Muslim İnstitutunun sədri Sahibzadə Sultan Ahmed "Məhəmməd Füzuli və Sultan Baho yaradıcılığı Azərbaycan-Pakistan ədəbi əlaqələri kontekstində" geniş məruzəsində əlaqələrin tarixindən və bu günündən söz açıb. Lahor Urdu Kollec Universitetinin dosenti, dr. Safeer Heyderin "Sultan Bahonun mistik simfoniyasında insan mənliyinin əksi" adlı məruzəsi maraqla qarşılanıb.

Konfransda Ədəbiyyat İnstitutunun Azərbaycan-Asiya ədəbi əlaqələri şöbəsinin müdiri, filologiya elmləri



*Eynulla Mədətli, Asif Tanveer Avan, Sahibzadə Sultan Ahmed, İsa Həbibbəyli, Filip Hambl, Safeer Heydər, Bədirxan Əhmədli*

doktoru, professor Bədirxan Əhmədli "Azərbaycan-Pakistan ədəbi əlaqələri keçmişdən bu günə" adlı geniş məruzə edib. Qeyd edib ki, Azərbaycanla Pakistanı bir-birinə yaxınlaşdıran təkcə dini, milli yaxınlıqlar deyil, həm də keçmişimizdir, eyni tarixdən gəlməyimizdir. Xalqlar arasındakı yaxınlıq onların ədəbi-mədəni əlaqələrində də eyni dərəcədə təzahür edir. Bu baxımdan Azərbaycan-Pakistan ədəbi-mədəni əlaqələrinin böyük bir keçmişi vardır. Məhz bu keçmişin üzərində dayanaraq biz həm də gələcəyimizi qururuq. Hər iki xalqın gələcəyə yönəlik baxışları onların ədəbiyyatında, mədəniyyətində də dərin iz buraxmışdır. Pakistanda Azərbaycan klassikləri Nizami Gəncəvi, Nəsimi, Füzuli, C.Məmmədquluzadə və b. yaradıcılığı öyrənildiyi kimi, Azərbaycanda da Pakistanın filosof şairi Əllamə Məhəmməd İqbal yaradıcılığı öyrənilir və nəşr edilir. Bu tanıtım prosesinin böyük bir keçmişi vardır. C.Məmmədquluzadənin hekayələri urdu dilinə tərcümə edilmişdir.

Azərbaycan öz müstəqilliyini 1918-ci ildə qazandıqda dövlət bayrağında "türkləşmək, müasirləşmək, islamlaşmaq" üçlü formuluna, Pakistan isə "islamlaşmaq, millətləşmək və müasirləşmək" formuluna üstünlük vermişdir. Göründüyü kimi, üst-üstə düşən və bir-biri ilə səsləşən bu formullar bu gün də uğurla davam etdirilir.

Vrije Universiteti Brüssel təmsilçisi, professor Filip Hambl çıxış edərək hər iki Şərq mütəfəkkiri haqqında fikirlər səsləndirib, Qərblə də əlaqələrin inkişaf etdirilməsinin önəmindən danışıb.

Fəlsəfə İnstitutunun elmi işlər üzrə direktor müavini tarix elmləri doktoru Eynulla Mədətlinin "Orta əsrlərdə Azərbaycan-Pakistan siyasi və mədəni əlaqələrinə bir baxış", filologiya üzrə fəlsəfə doktoru, dosent Zəkulla Bayramlının "Məhəmməd Füzuli və Türk dünyası", BDU-nun Şərqşünaslıq fakultəsinin Orta Şərq dilləri və ədəbiyyatı kafedrasının müəllimi Eldost İbrahimovun "Həzrət Sultan Baho yaradıcılığında tərbiyəvi ideyalar" mövzusunda məruzələri ilə konfrans davam edib.



*Ağahüseyn Şükürov, Pərvanə Cavadzadə, Rəna Naibova, İsa Həbibbəyli, Tariyel Ümid, Rəhim Hüseynzadə, Natiq Cavadzadə*

## ƏLİ TUDƏNİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ ELMİ SESSİYA

Ədəbiyyat İnstitutunda Əli Tudənin 100 illiyinə həsr olunmuş elmi sessiya keçirilib. Tədbirdə şairin ailə üzvləri, AYB-nin nümayəndələri, media mənsubları və başqaları iştirak ediblər.

Əvvəlcə şairin həyat və fəaliyyətini əks etdirən sərgiyə baxış olub.

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli bildirib ki, konfransın keçirilməsində məqsəd XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən Əli Tudənin yaradıcılığını yenidən Azərbaycan cəmiyyətinə təqdim etməkdir. Qeyd edib ki, görkəmli Azərbaycan şairi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar incəsənət xadimi Əli Tudə ölkəmizdə Cənubi Azərbaycan ədəbiyyatının əsas yaradıcılarından biri olmuş və Azərbaycanın milli-mənəvi bütövlüyünün təmin edilməsi, eləcə də azadlıq, vətənpərvərlik ruhunda mükəmməl lirik əsərlər meydana gətirmişdir.

Əli Tudə yaradıcılığının ideya-mövzu və bədii sənətkarlıq cəhətdən zəngin olduğunu deyən akademik İsa Həbibbəyli ədibin vətəndaş şair kimi özünün ictimai-siyasi baxışlarını dövrünün çətinliklərinə baxmayaraq cəsarətlə lirik əsərlərində tərənnüm etdiyini bildirib. "Əli Tudənin bütün yaradıcılığı çoxcəhətli lirikasından ibarətdir. Onun poeziyasında süjet xətti və qəhrəmanlar var. Həmçinin publisistikasında lirik notlar müşahidə edilir və özünəməxsus bədii keyfiyyətlərə malikdir", - deyə akademik İsa Həbibbəyli söyləyib.

Bu gün şairin azadlıq ruhlu şeirlərinin cənublu soydaşlarımızın ana dilində təhsil və mədəniyyət uğrunda mübarizələrinin carçısına çevrildiyini deyən akademik İsa Həbibbəyli elmi sessiyanın ədəbiyyatşünas alimlərin Əli Tudənin yaradıcılığına göstərdiyi diqqət və ehtiramının ifadəsi olduğunu söyləyib.

Sonra çıxış edən Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq əlaqələr və tərcümə məsələləri üzrə katibi Səlim Babullaoğlu Əli Tudənin 100 illiyinin 44 günlük Vətən Müharibəsindən sonra keçirilməsinin rəmzi məna daşıdığını deyib. 2020-ci il Vətən Müharibəsindən əvvəl bir şeir yazıldı və 24 il sonra həqiqətə çevrildi, şair öncədən gələcyi duymuşdu. Əli Tudə 50 poemanın, 60 kitabın müəllifidir, şeirləri müxtəlif dillərdə, müxtəlif ölkələrdə çap olunub. Şairin poetik ideallarını daha yaxından duymaq üçün onun əsərlərindən seçmələrə nəzər salmaq yerinə düşər. Yubileyin akademiyada keçirilməsini yüksək qiymətləndirən AYB təmsilçisi bu cür tədbirləri qədirbilənlik adlandırıb.

Elmi sessiyada filologiya üzrə fəlsəfə doktoru, dosent Ağahüseyn Şükürov "Əli Tudənin yaradıcılıq yolu", filologiya elmləri doktoru, dosent Esmira Fuad "Əli Tudənin yaradıcılığında folklor", filologiya elmləri doktoru, dosent Pərvanə Məmmədli Əli Tudənin yaradıcılığında həsrət mövzusu", filologiya üzrə fəlsəfə doktoru, dosent Mahmizər Mehdibəyova "Əli Tudənin nəsri" və böyük elmi işçi Lətifə Mirzəyeva "Səməd Vurğun və Əli Tudənin ünsiyyət dünyası" mövzularında məruzələrlə çıxış ediblər.

Sonda ailəsi adından şairin oğlu Natiq Cavadzadə çıxış edərək atasının şeirlərindən nümunələr səsləndirib və tədbirin təşkilatçılarına və iştirakçılarına öz minnətdarlığını bildirib. Həmçinin bildirib ki, atasının əsərlərini toplayaraq 20 cildliyini çap etdirib.

# "AZƏRBAYCAN ƏDƏBİYYATINDA HEYDƏR ƏLİYEV OBRAZI: TARİXİ GERÇƏKLİKDƏN İDEALA" ADLI ELMİ SESSİYA



Ədəbiyyat İnstitutunda "Azərbaycan ədəbiyyatında Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" adlı elmi sessiya keçirilib. Tədbir Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunub.

Əvvəlcə görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin irsini əks etdirən kitab sərgisi nümayiş etdirilib.

Elmi sessiyanı giriş sözü ilə AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli açaraq Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövləti qarşısında tarixi xidmətlərindən danışıb. Bildirib ki, hər il ənənəvi olaraq Ulu Öndərin doğum günü, anım günü ərəfələrində, eləcə də müxtəlif zamanlarda Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş konfranslar, elmi sessiyalar, dəyirmi masalar təşkil edilir və bu tədbirlər özünəməxsusluğu ilə seçilir. Akademik İsa Həbibbəyli bu il Ümummilli Lider Heydər Əliyevin 101-ci ildönümünün ilk dəfə olaraq ərazi bütövlüyü və suverenliyi tam təmin edilmiş Azərbaycanda təntənə ilə qeyd edildiyini vurğulayıb.

Akademik İsa Həbibbəyli Ulu Öndərin xalqımız qarşısında ən böyük xidmətlərindən birinin özündən sonra siyasi varis hazırlayaraq Azərbaycanın gələcəyini də düşünməsi olduğunu deyib. O, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə tarixi ərazilərimiz üzərində ölkəmizin tam və qəti qələbəsinin təmin edildiyini bildirib. Diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin adı Azərbaycanın çoxəsrlik tarixinə Qalib Ali Baş Komandan kimi qızıl hərflərlə yazılıb. "Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində Heydər Əliyev epoxasının müstəsna yeri var. Bu böyük tarixi şəxsiyyət müstəqil Azərbaycanın yaradıcısı kimi mühüm missiyanı şərəflə həyata keçirmişdir", - deyən alim 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" kimi yadda qaldığını və AMEA-da 52 kitab və monoqrafiyanın, həmçinin 16 konfrans materialının çap edildiyini diqqətə çatdırıb.

Tədbirdə, həmçinin Ədəbiyyat İnstitutunun Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu, Uşaq ədəbiyyatı şöbəsinin müdiri filologiya elmləri doktoru, dosent Elnarə Akimova, XX əsr (Sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri filologiya elmləri doktoru, professor Asif Rüstəmli, Ədəbiyyat İnstitutunun elmi katibi filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı və Ədəbiyyat institutunun direktorunun müşaviri filologiya elmləri doktoru Əlizadə Əsgərli mövzu ilə bağlı çıxış ediblər.

**Gülnar Səma**

*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,*
*İctimaiyyətlə əlaqələr şöbəsi*



# ŞAHMAT EHTİRASI

Hamlet İsaxanlı

*Əvvəli jurnalın 437-ci, 438-ci (mart, aprel 2024-cü il) nömrələrində*

## Şahmat və riyaziyyat

Şahmat və riyaziyyat arasındakı münasibət barədə şahmatçılar da, riyaziyyatçılar da fikir söyləmişlər. Şahmatçının qeyri-adi fantaziya gücü kimi qiymətləndirilən qeyri-adi gedişi tapma sirri riyaziyyatçının problem həll edərkən tapdığı qeyri-adi kəşflə-üsulla-gedişlə müqayisə oluna bilər. Riyaziyyatçıya xas olan alqoritmik düşüncə, qarşıda duran problemin həlli üçün ideya tapmaq və bu ideyanı addım-addım həyata keçirmək şahmatçıya da xas olan düşüncə tərzidir. Riyaziyyatda da hesablama var, şahmatda da. Lakin, şahmat məsələsi ilə riyazi məsələ, usta şahmatçı ilə riyaziyyatçı alim arasında fərqlər də var. İngiltərəli görkəmli riyaziyyatçı G.H. Hardy (1877-1947) məşhur *A Mathematician's Apology* (*Riyaziyyatçı`nın müdafiəsi*) əsərində (Cambridge University Press, 1940) riyaziyyatdan daha populyar sahələrin, məsələn, musiqi və şahmatın varlığını qeyd etməklə yanaşı, əksəriyyətin riyaziyyatı başa düşməsə də, yüksək qiymətləndirdiyini, riyaziyyata hörmətlə yanaşdığını irəli sürür.



*G.H. Hardy*

Hardy`yə görə şahmatdakı gözəlliyi duyan, qiymətləndirən çox olsa da (məsələn, Rusiyada), o, hər halda riyazi gözəlliyin nisbətən sadə şəklidir: "Rusiyada, demək olar ki, bütün savadlı əhali və hər bir şahmatçı «gözəl» oyunu və ya məsələni duyub, başa düşüb, qiymətləndirə bilir. Hər halda, şahmat məsələsi sadəcə mücərrəd, fundamental riyaziyyatda bir məşğələ, tapşırıq kimidir". Burada o, şahmat oyununun riyazi məşğələdən bir mühüm fərqini qeyd etməli olur: "...bütövlükdə oyun belə deyil, çünki psixologiya da rol oynayır" . Hardy şahmat məsələsindəki gözəlliyin riyazi təbiətə malik olduğunu deyir: "və məsələni «gözəl» adlandıran hər kəs riyazi gözəlliyi alqışlayır, hətta bu, nisbətən, təvazökar növ gözəllik olsa da. Şahmat problemləri riyazi melodiyaların səslənməsidir" (G.H. Hardy. An Annotated Mathematician`s Apology. Lisbon, 2019; səh. 24). Hardy`nin fikrini təsdiq edən sadə bir şahmat məsələsini yada salıram: öz piyadasını son xəttə çatdırıb qələbə çalmaq üçün hücum edən şaha qarşı müdafiə olunan şah

hücum edən şaha nəzərən müxalif, "oppozisiya" vəziyyəti tutmağa və bununla oyunu heç-heçə bitirməyə çalışır; bu, sadə riyazi, daha doğrusu, sadə həndəsi prinsip kimi qiymətləndirilə bilər. Gediş növbəsi Qara şahda isə oppozisiya vəziyyətində olan ağlar udur, əksinə, növbə Ağ şahda isə Qara şah oppozisiya vəziyyəti tutmaqla oyunu heç-heçə bitirə bilir.

Hardy şahmat məsələsinin sadə, adi riyaziyyat olduğu, amma riyaziyyatdan fərqli olaraq ciddi olmadığı, xüsusilə, onun bir əhəmiyyət kəsb etmədiyi fikrindədir: "Şahmat məsələsi həqiqi riyaziyyatdır, amma müəyyən mənada «trivial», bəsit riyaziyyatdır. Gedişlər hər nə qədər ağıllı və dolaşıq, hər nə qədər orijinal və gözlənilməz olsa da, onlarda mühüm bir əskiklik var. Şahmat məsələləri əhəmiyyətsizdir. Əsl riyaziyyat həm ciddidir, həm də gözəldir – istəsəniz vacibdir demək olar, amma bu söz ("vacib") çox qeyri-müəyyəndir və demək istədiyimi «ciddi» sözü daha yaxşı ifadə edir" (s. 25).

* * *

Ümumilikdə Hardy doğru desə də, şahmat və riyaziyyat qarşıdurmasını yumşaldan amillər də mövcuddur. Şahmat elə-belə oyun deyil, gözəl oyundur, həm də ciddi oyundur. Düzdür, "oyun" və "ciddilik" bir-birinə zidd mənalı sözlərə bənzəyirlər. Ciddi işlərdən yorulan və ya bezən adam bir oyunla məşğul olmaq, ciddilikdən qaçmaq istəyir. Şahmatın bənzərsizliyi onun zehni oyun olmasındadır, şahmat intellektual oyundur. Üstəlik, yaradıcı uğurdan alınan intellektual həzz şahmat oynayan hər kəsə nəsib olur – peşəkara da, həvəskara da. Zəka və fantaziyanın əl-ələ verib mübarizəyə qoşulması insanı çoşdurur, onda ağıl işlədib, qələbə çalmaq ehtirası doğurur.




*Qarşıdurma*



Ferdinand de Saussure

Riyaziyyat da, geniş düşünəndə, qayda-qanunları olan bir oyundur, ciddi və gözəl oyundur. Elə dilin qrammatikası da məlum qaydalara tabe olan oyundur. Görkəmli dilçi Ferdinand de Saussure (1857-1913) və görkəmli filosof L. Wittgenstein (1889-1951) dil və şahmat arasında bənzərlik görürdülər: şahmat fiqurlarının gücü və işi onların şahmat taxtasındakı mövcud vəziyyəti ilə bağlı olduğu kimi, dildəki sözlər, terminlər də onların qrammatik qaydalara uyğun olaraq tutduqları yer və gördükləri işlə bağlıdır. Vacibliyə gəldikdə isə, musiqi və təsviri incəsənətə də "vacib deyil" kateqoriyası ilə yanaşmaq mümkündür. Amma, onlarsız həyat yoxdur. Şahmatın da mühüm bir tərəfi onun sənət, incəsənət olmasındadır. Həyati və ya tətbiqi vacibliklərdən kənarda da mücərrəd və köklü gözəlliklər mövcuddur: şahmat (və musiqi, təsviri incəsənət) kimi riyaziyyatın da bir sıra məsələləri tətbiqlərdən uzaqda qala bilir.



*L. Wittgenstein*

Hardy, bu görkəmli riyazıyyatçı riyaziyyat və elm aşiqi-

dir (əks halda, o, görkəmli riyaziyyatçı ola bilməzdi!). O, riyazi və fiziki məsələlərdən fərqli olaraq heç bir şahmat məsələsinin bəşəriyyətin irəliləməsinə töhfə vermədiyini qeyd edir: "Heç bir şahmat problemi elmi düşüncənin ümumi inkişafına heç vaxt təsir göstərməmişdir, Pifaqor, Newton, Einstein isə öz dövrlərində onun bütöv istiqamətini dəyişdirmişlər ... Şahmat məsələsinin dəyərsizliyi ... onun nəticələrinə deyil, məzmununa görədir" (s. 26).

Hardy, doğru olaraq, böyük yarışlarda, matçlarda iştirak edən şahmat ustası ilə şahmat etüdləri düzəldən "şahmat bəstəçisi" arasındakı fərqi vurğulayır, peşəkar şahmatçının bəstəçi məsələlərinə bir növ yuxarıdan aşağı baxdığını deyir, çünki, o, praktikada belə məsələlərə rast gələrsə, onları yerində həll edəcəyini bilir. Hardy şahmata xas olan bir cəhəti, böyük şahmatın sadə riyazi məsələlərdən ibarət olmadığını, mübarizə psixologiyasına əsaslandığını yada salır: "Möhtəşəm oyunların və möhtəşəm matçların oyunçusu olan şahmat ustası, əslinə baxanda, şahmat məsələsi – etüd müəllifinin təmiz, sırf riyazi sənətinə həqarətlə baxır. Onun öz ehtiyatında bu şeylərin çoxu var və fövqəladə vəziyyətdə onu özü düzəldə bilər... Lakin şahmatın "böyük oyunu" ilk növbədə psixoloji işdir, təlim keçmiş bir zəka ilə digərinin münaqişəsidir sadəcə, kiçik riyazi teoremlər toplusu deyil (s. 41-42).

* * *

Poeziya və riyaziyyatda, eləcə də nəzəri təbiət elmlərində olduğu kimi, şahmatda da yaş düşməndir, şahmat "gənc insanın oyunudur" (G.H. Hardy. s. 10). Doğrudan da, yaşlandıqca insanın yeni və çətin məsələyə qarşı reaksiyası, cavab gücü zəifləyir, yaddaş zəifləyir, yenilikləri izləmək gücü və həvəsi azalır. İstisna varsa, çüzidir və yaş problemini inkar etmək gücündə deyil. Belə istisnalara bir misal: Emanuel Lasker 67 yaşında öz tərkibinə görə çox güclü olan beynəlxalq Moskva turnirində (1935) birinci yeri bölüşdürən Botvinnik və Flor`dan cəmi yarım xal geri qalıb üçüncü yeri tutmuş, bir partiya belə uduzmamış, dünya çempionu Kapablanka da daxil olmaqla digər məşhur şatmatçıları arxada qoymuşdu.

Bu yerdə sözü yenidən həmsöhbətim dahi şahmatçı və görkəmli riyazıyyatçı olan Lasker`ə verirəm; o, riyaziyyat və şahmatın daha bir fərqli cəhətini, şahmata xas olan qeyri-müəyyənliyi vurğulayır: "Şahmatın məntiqi riyazi xassəyə malik deyil. Riyaziyyatçı 2 x 2 = 4 olduğunu tapır, şahmatdakı usta gediş isə çox cüzi hallarda birqiymətli müəyyən olur; müəyyənlik ancaq ləhinə və əleyhinə uzun mühakimələrdən sonra əldə edilir və bəzən həddindən artıq xırda cəhətlər, həmçinin, çox böyük dərəcədə, fantaziya həlledici əhəmiyyət kəsb edir" (Эмануел Ласкер. Учебник шахматной игры. Здравый смысл в шахматной игре. Калиниченко, 2021; с. 467-468).



*Norbert Wiener*

Riyaziyyatla şahmatı müqayisə edən Amerikalı riyaziyyatçı və kibernetik Norbert Wiener (1894-1964) riyaziyyatçının daha sərbəst olduğunu, şahmatçının isə seçim edərkən çox diqqətli olmasının, yaxşı-pis hər şeyi nəzərdən keçirməsinin zəruriliyini vurğulayır: "riyaziyyat elə bir sahədir ki, ondakı kobud səhvlər aydın görünür və onları qələmin bir hərəkəti ilə bir anda düzəltmək və ya silmək olur; bu, riyaziyyatın üstünlüyüdür. Bu sahə tez-tez şahmatla müqayisə edilir, amma, sonuncudan fərqli olaraq o, ancaq ən yaxşı məqamları nəzərə alır, pis olanları deyil. Tək bir diqqətsizlik şahmat oyununda məğlubiyyətə gətirə bilir, halbuki zibil qabına atılması nəzərdə tutulan çox məsələlər arasında tək bir uğurlu yanaşma riyaziyyatçıya nüfuz gətirir" (Norbert Wiener. Ex-Prodigy: My Childhood and Youth MIT Press, 1953; p. 21 or 1964; p. 89).

Laskerin müasiri və şahmata qeyri-standart yanaşması ilə seçilən R. Reti (1889-1929) də şahmatla riyaziyyatı, şahmatçı ilə elm adamını müqayisə edir. O, şahmat-compüter proqlamlarının pioneri olan Şennon`un maraqlı sualını cavablandırır, şahmata xas olan məhdudiyyətli mübarizəni vurğulayır, elm adamının öz işini, şahmatçıdan fərqli olaraq, tələsmədən, köməkçi vasitələrdən istifadə etməklə görə biləcəyini qeyd edir: "Şennon məndən soruşub bilmək istəyirdi – Wiener niyə şahmat oynaya bilmirdi? Nə üçün o, rəqibin aşkar cavablarını öncədən görə bilmirdi?" Və Reti cavab verir: "Şahmatçı gediş üzərində düşünərkən heç bir köməkçi vasitədən istifadə etmir..., o, düşünmək üçün

ayrılmış vaxtla kəskin surətdə məhduddur. O, gedişi geri götürə bilməz…Şahmatçının yalnız bir hüququ var – vəziyyətin inikasını tərtib və təhlil etmək… Alimə şahmatın bu döyüş keyfiyyəti, çox güman ki, lazım gəlmir, çünki alim öz məsələsini tələsmədən, səhvləri düzəldə-düzəldə, hər cür məsləhət, arayış və hesablamalardan istifadə edərək həll etmək imkanına malikdir" (Рихард Рети. Современный учебник шахматной игры. Москва, 1981; с. 90-91).



*R. Reti*

## Riyazi şahmat və kompüter şahmat proqramları



*Leonhard Euler*

Şahmatla bağlı maraqlı riyazi məsələlər mövcuddur. Bunlardan biri "Şahmat atının marşrutu" (Knight`s Tour) məsələsidir: şahmatın ən hiyləgər fiquru sayılan atın şahmat taxtasında bir xanadan başlayıb hər xanada yalnız bir dəfə olmaqla bütün xanalardan keçən marşrutunu tapmaq. Bu məsələ ilə 9-cu əsrdə əl-Adli və əl-Suli məşğul olmuş, bir neçə belə marşrut göstərmişlər (H.J.R. Murray. A History of Chess. Oxford University Press, 1913; pp. 336-337). Bu məsələ böyük riyaziyyatçı Leonhard Euler`in (1707-1783) diqqətini cəlb etmiş və o, istənilən sayda həll tapmaq üçün yol, alqoritm vermişdir. Bu cür marşrutları xanaları atın onlardan keçmə ardıcıllığı üzrə nömrələməklə göstərmək mümkündür.

Riyaziyyatçılar bu məsələnin çox müxtəlif istiqamətlərdə ümumiləşdirmişlər, belə marşrutların sayı (milyonlarla!), növləri, simmetriya qanunları kimi məsələləri araşdırmışlar. Bu cür məsələlər riyaziyyatın *Qraf nəzəriyyəsi*`nə (Graph Theory) aiddir. Digər riyazi şahmat məsələləri arasında "Səkkiz vəzir məsələsi"ni yada salmaq olar: şahmat lövhəsində 8 vəziri neçə cür düzmək olar ki, onlar bir-birini vurmasın (yəni, bu vəzirlərdən hər hansı ikisi bir şaquli, üfüqi və diaqonal xətdə yerləşməsin)? 8 vəziri bir-birini vurmadan düzmək asan işdir, problem bu cür düzülüşlərin nə qədər olmasındadır. Böyük riyaziyyatçı Carl F. Gauss (1777-1855) bu şərti ödəyən 72 düzülüş tapmışdı; sübut olundu ki, bu cür cəmi 92 düzülüş var! Atın

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 60 | 11 | 56 | 07 | 54 | 03 | 42 | 01 |
| 57 | 08 | 59 | 62 | 31 | 64 | 53 | 04 |
| 12 | 61 | 10 | 55 | 06 | 41 | 02 | 43 |
| 09 | 58 | 13 | 32 | 63 | 30 | 05 | 52 |
| 34 | 17 | 36 | 23 | 40 | 27 | 44 | 29 |
| 37 | 14 | 33 | 20 | 47 | 22 | 51 | 26 |
| 18 | 35 | 16 | 39 | 24 | 49 | 28 | 45 |
| 15 | 38 | 19 | 48 | 21 | 46 | 25 | 50 |

*Əl-Adil`nin həlli*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 42 | 59 | 44 | 9 | 40 | 21 | 46 | 7 |
| 61 | 10 | 41 | 58 | 45 | 8 | 39 | 20 |
| 12 | 43 | 60 | 55 | 22 | 57 | 6 | 47 |
| 53 | 62 | 11 | 30 | 25 | 28 | 19 | 38 |
| 32 | 13 | 54 | 27 | 56 | 23 | 48 | 5 |
| 63 | 52 | 31 | 24 | 29 | 26 | 37 | 18 |
| 14 | 33 | 2 | 51 | 16 | 35 | 4 | 49 |
| 1 | 64 | 15 | 34 | 3 | 50 | 17 | 36 |

*Eiler`in bir həlli*




*Carl F. Gauss*

marşrutu və ya "8 vəzir" kimi məsələləri kompüter proqramları vasitəsilə araşdırmaq mümkündür.

"8 vəzir məsələsi"ni belə bir riyazi məsələ ilə eyniləşdirmək olar: hər elementi (hər xana) 0 və ya 1-olan elə 8 x 8 ölçülü kvadrat matris düzəlt ki, 1) matrisin bütün elementlərinin cəmi 8 olsun və 2) heç bir sətir, sütun və diaqonal elementlərinin cəmi birdən çox olmasın.

Riyaziyyatın *Oyun nəzəriyyəsi* (Game Theory) adlanan sahəsi iki rəqib arasında gedən oyunda qələbə çalmaq və ya heç olmazsa uduzmamaq üçün hansı strategiyanın seçilməli olduğu barədə elmdir. Bu elmlə, həmçinin, süni intellektlə bağlı araşdırmalarda model rolunu oynayan sahələrdən biri də şahmat olmuşdur.

* * *

1769-1970-cu illərdə macar mühəndis Wolfgang van Kampelen "Türk" adlı şahmat oynayan avtomat düzəltdi, yaxşı şahmat oynayan bu avtomat qısa vaxtda Avropada çox populyar oldu. Bu mexaniki cihaz-avtomatın baş tərəfində adam ölçüsündə və başında türban, türk sayağı geyindirilmiş adam fiquru vardı. Bu "Türk" - avtomat Avropa, sonra Amerika səyahətinə çıxır, hər yerdə oynayır və qalıb gəlirdi. Parisdə Napoleon`u və B. Franklin`i asanca udmuş, amma Philidor`a uduzmuşdu. Sirr onun içində yaxşı oynayan bir şahmatçının gizlənməsi idi. Avtomat-cihazın iki tərəfdən qapısı açılanda sanki bir tərəfdən o biri tərəf görünürdü. Lakin "türk-adam" olan hissədə gizli qapılar vardı. Türk-avtomatın masası üzərindəki şahmat fiqurlarının alt hissəsində gizlədilmiş maqnit hissə vardı, bununla da fiqurların hərəkəti içəridə oturmuş şahmatçıya məlum olurdu. Beləcə, "şahmatçı Türk" şübhə yaratmadan oynadı, onunla təmasda olanları heyran qoydu. Əldən-ələ keçən "Türk" 1854-cü ildə Philadelphia muzeyində baş verən yanğında xarab oldu və işini dayandırdı. Avtomatın sonuncu sahibinin oğlu S.W. Mitchell 1857-ci ilin yanvar-fevral aylarında yeni başlayan "The Cheess Monhly" jurnalında məqalə yazaraq sirri açdı.



*"Turk"*

* * *

20-ci əsrin ortalarından başlayaraq şahmat oyununun alqoritmi yaradıldı və oyun proqramlaşdırıldı. Kibernetikanın atası sayılan Norbert Wiener öz məşhur kitabında (Cybernetics or Control and Communication in the Animal and the Machine. MIT Press,1948) minimax (minimum və maksimum) axtarış-alqoritm əsasında şahmat proqramları və şahmat oynayan maşın düzəltməyin mümkünlüyündən söhbət açmışdı. Şahmat taxtası üzərində müxtəlif vəziyyətlər sonlu saydadır, onlar çox-çox böyük rəqəmlərlə ifadə olunsalar da. Bu, alqoritm qurmaq, kompüterə şahmat oynamağı öyrətmə imkanı verir. Bu istiqamətdə Amerika riyaziyyatçısı və elektrik mühəndisi, "informasiya nəzəriyyəsinin atası" adlandırılan Claude Shannon`un (1916-2001) araşdırması (Programming a Computer for playing Chess. Philosophical Magazine, March, 1950) ilkin mühüm addım sayılır. Hər vəziyyəti davam etdirmək üçün mümkün olan gedişlərin sayı sonludur (yenə böyük rəqəmlər olsa da). Bu halda şahmat oyununu "ağac" kimi görmək olar: bədən – mövcud vəziyyət, budaqlar isə mümkün gedişlərdir. Shannon bu modeldə mümkün gedişlərin uzunluğunu (dərinliyini) eyni qeyd olunmuş rəqəmlə məhdudlaşdırmağı təklif edib (məsələn, 4, 10, 15) belə alqoritm irəli sürdü: bütün gedişlər üçün onların gücünü göstərəcək ədədi qiymət düzəltmək (məsələn, fiqurların nisbi gücünü və vəziyyətini, açıq xətlərə və mərkəzə nəzarəti, piyadaların vəziyyəti, şahın təhlükəsizliyi

kimi amilləri nəzərə almaqla); hər vəziyyətdə – bədəndə ən yaxşı gedişi tapmaq üçün mümkün bütün gedişlərə – budaqlara baxmaq; və ən maksimal qiymətə malik gedişi seçmək. Oyun davam etdikcə, vəziyyət dəyişdikcə, qiymətləndirmə rəqəmləri də dəyişir. Shannon şahmat "oyun-ağacının mürəkkəbliyi"ni ("game-tree complexity") hesabladı, təqribən 10120 olan bu rəqəmə "Şannon rəqəmi" də deyirlər. Müqayisə üçün məlum (müşahidə oluna bilən, yəni hər istiqamətdə 46 milyon işıq ili boyu uzanan, ümumilikdə ən çoxu 93 milyon işıq ili boyu olan) kainatdakı atomların sayı təqribən 1082 olaraq qiymətləndirilir.



*Claude Shannon*

* * *

Kompüter şahmat proqramının necə böyük rəqəmlərlə üzləşdiyini görmək üçün kiçik bir hesab aparıram. Oyun zamanı şahmat taxtası üzərində hər vəziyyətdə ortalama 35-40 gediş etmək olur, konkretlik üçün 35 olsun. Hər gedişə cavab üçün ortalama 35 gediş öyrəniləcək və beləliklə, bir gediş və ona mümkün cavab üçün 35 x 35 = 1225 gediş təhlil olunmalıdır. Hər tərəfin iki gediş etməsi halında təqribən milyon yarım sayda (1225 x 1225) gediş, hər tərəfin 3 gediş etməsi halında 2 milyarddan çox (1.5 milyon x 1.5 milyon) gedişə fikir vermək lazım gəlir...



*Bernstein öz IBM 704 proqramı ilə*

Digər tərəfdən isə, şahmat partiyasındakı mövcud vəziyyəti davam etdirmə imkanları çox böyük rəqəmlərə dayandığı üçün intuisiyanın, şahmat təcrübəsinin əhəmiyyəti böyükdür, süni intellekt işində, proqramlaşdırmada onları nəzərə almaq lazım gəlir. Necə? Lazımsız, zəif sayılan gedişləri tez tapıb silmək, az sayda ən yaxşılarla daha dərinə getmək?! Hamlet`in klassik sözü yada düşür: sual budur, bu! (That is the question!). Beləliklə, xüsusi kompüterlər üçün şahmat oynamaq məqsədilə proqram təminatı yaratma işinə başlanıldı. 1957-ci ildə amerikalı riyaziyyatçı və şahmatçı Alex Bernstein öz tələbə və həmkarları ilə şahmat oynaya bilən ilk praktik kompüter proqramı yazdı.

Kömpüterlər arasında ilk şahmat yarışı baş verdi (1966-67); o zaman kompüter güclü şahmatçı ilə bacarmırdı. 1974-cü ildə şahmat kompüter proqramlarının dünya çempionatı keçirildi, 13 iştirakçı arasında Sovet "Kaissa" proqramı çempion oldu. Lakin sonra bu sahədə Amerika sözsüz lider oldu. Kömpüter elmlərinin inqilabi inkişafı şahmat proqramlarının yaradılmasında da özünü göstərdi. 1994-cü ildə şahmat proqramları güclü qrossmeysterlərlə oynamaq gücünə malik oldu. 1997-ci ilin may ayında IBM-in Deep Blue super kompüteri dünya çempionu Qarri (Garry) Kasparov ilə matçda qalib gəldi: 3.5-2.5 (Daha əvvəl, 1996-cı ilin fevral ayında Kasparov qalib olmuşdu: 4-2. Deep Blue 32 bir-biri ilə əlaqəli prosessor vasitəsilə yüksək sürətli hesablama qabiliyyəti nümayiş etdirərək bir saniyədə 200 milyon şahmat vəziyyətini qiymətləndirə bilirdi.

2000-ci illərdə çox güclü (ən güclü qrossmeysterdən açıq-aşkar güclü) şahmat kompüter proqramları meydana çıxdı. Bunlardan ilki və ən populyarı Stockfish ("qaxac, qurudulmuş balıq") olmaqla digər ən güclülər Komodo, Houdini və neyron şəbəkələrlə çalışan Leela Chess Zero proqramlarıdır.




*Deep Blue*

(*Davamı var*)

## DIRNA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ AZƏRBAYCAN TƏRƏFDAŞ UNİVERSİTETLƏRİ İLƏ ONLAYN GÖRÜŞ

## ONLINE MEETING WITH AZERBAIJANI PARTNER UNIVERSITIES FOR DIRNA PROJECT

Mayın 8-də Xəzər Universitetinin koordinatorluğu ilə "Azərbaycanda İnstitusional Repozitoriyalar şəbəkəsi vasitəsilə Tədqiqat Potensialının inkişafı" DIRNA (Developing Research Capacity through Institutional Repositories Network in Azerbaijan) adlı layihə çərçivəsində onlayn görüş keçirilib.

Universitetin İnkişaf Mərkəzinin direktoru Raziyə İsayevanın moderatorluğu ilə baş tutan görüşdə Kitabxana İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli və tərəfdaş Azərbaycan universitetlərinin nümayəndələri (Bakı Dövlət Unversiteti, Azərbaycan Texniki Universiteti, Dövlət Gömrük Komitəsinin Akademiyası, Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti) iştirak ediblər.

Görüşdə Gəncədə keçiriləcək yay məktəbinin proqramının müzakirəsi, iştirak edəcək şəxslərin müəyyənləşdirilməsi və qarşıda görüləcək işlərin planlaşdırılması təhlil olunub.

Tərəfdaş universitet nümayəndələri görülən işlər haqqında məlumat verib və moderator tərəfindən belə təklif irəli sürülüb ki, görülən işlər haqqında məlumat *DIRNA* vebsaytına və sharepointə yerləşdirilsin.

On May 8, an online meeting was held within the framework of the DIRNA project " Developing Research Capacity through Institutional Repositories Network in Azerbaijan " under the coordination of Khazar University. The meeting moderated by the director of the Development Center of the University, Raziya Isayeva, was attended by the deputy director of the Library Information Center, Aytaj Misgarli, and representatives of the partner universities of Azerbaijan (Baku State University, Azerbaijan Technical University, Academy of the State Customs Committee, Ganja State University, Nakhchivan State University, Lankaran State University).

The meeting discussed the program of the summer school to be held in Ganja, the identification of the participants and the planning of the work to be done in the future. Representatives from the partner universities provided updates on their work, and the moderator suggested that this information be posted on the *DIRNA* website and SharePoint.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ VİRTUAL QƏRBİ AZƏRBAYCAN PORTALININ TƏQDİMAT MƏRASİMİNDƏ

## POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT HEAD IN VIRTUAL WEST AZERBAIJAN PORTAL PRESENTATION CEREMONY

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev mayın 8-də Bakı Kitab Mərkəzində Virtual Qərbi Azərbaycan portalının təqdimat mərasimində iştirak edib. Portal Qərbi Azərbaycan İcmasının, həmçinin Heydər Əliyev Fondunun dəstəyi və təşkilatçılığı ilə yaradılıb.

Tədbirdə Heydər Əliyev Fondunun şöbə müdiri Elvin Abbasov və Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, millət vəkili Dr. Əziz Ələkbərli açılış nitqi söyləyiblər. Sonra tarixçi alimlərin sayt haqqında məlumatları dinlənilib.

Məlum olduğu kimi, Qərbi Azərbaycan İcması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il dekabrın 24-də icma üzvləri ilə görüşündən sonra öz institusional fəaliyyətinə başlayıb.

On May 8, the head of the Department of Political Sciences and Philosophy Dr. Orkhan Valiyev, participated in the presentation ceremony of the Virtual Western Azerbaijan portal at the Baku Book Center. The portal was created with the support and organization of the West Azerbaijan Community, as well as the Heydar Aliyev Foundation.

Elvin Abbasov, department head of the Heydar Aliyev Foundation and Dr. Aziz Alakbarli, chairman of the Board of the West Azerbaijan Community, MP Dr. Aziz Alakbarli delivered opening remarks at the event. Later, historical scientists gave information about the site.

As it is known, the West Azerbaijan Community started its institutional activity with the visit of the President of the Republic of Azerbaijan Ilham Aliyev on December 24, 2022.

https://qerbiazerbaycan.com/

# TAM GƏNC BASKETBOL LİQASININ UNİVERSİTETLƏRARASI YARIŞINDA “XƏZƏR”İN KOMANDASI 5-Cİ YERDƏ

# KHAZAR UNIVERSITY TEAM SECURES 5TH PLACE IN INTER-UNIVERSITY YOUTH BASKETBALL LEAGUE COMPETITION



Azərbaycan Basketbol Federasiyası Tam Gənc Basketbol Liqasının ölkə universitetləri arasında keçirdiyi yarış başa çatıb. Xəzər Universitetinin komandası mayın 9-da sonuncu turda Bakı Mühəndislər Universiteti komandasını 75-30 hesabı ilə məğlub edərək, 36 xalla 11 komanda arasında 5-ci yeri tutmuşdur.

Azərbaycan Texniki Universitetinin komandası 39 xalla yarışmanın qalibi olmuşdur.

The competition held by the Azerbaijan Basketball Federation Youth Basketball League among the universities of the country has ended. On May 9, the team of Khazar University defeated the team of Baku Engineers University with a score of 75-30 in the last round and secured the 5th place among 11 teams with 36 points. The team of Azerbaijan Technical University won the competition with 39 points.



*Nicat Məmmədli*

# ELM VƏ TƏHSİL NAZİRİNİN MÜŞAVİRİ SEMİNAR KEÇİRİB

Mayın 10-da Azərbaycan Respublikası elm və təhsil nazirinin müşaviri Nicat Məmmədlinin Xəzər Universitetində "Yaşıl texnologiya və iqlim dəyişikliklərinin geosiyasəti" mövzusunda seminarı keçirilib.

Seminarda Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev, Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar, müəllimləri, doktorantlar və tələbələr iştirak ediblər.

Seminar yaşıl texnologiya, iqlim dəyişikliklərinin geosiyasəti, bu dəyişikliklərə verilən reaksiyaları və digər məsələləri əhatə edib. Nicat Məmmədli, həmçinin, iqlim dəyişikliyini illər üzrə təhlil edərək, 2050-ci ilədək görüləcək tədbirlər haqqında məlumat verib. Sonra tələbələrin sualları cavablandırılıb. Seminar Orxan Vəliyevin Nicat Məmmədliyə hədiyyə təqdimatı ilə yekunlaşıb.

# ADVISOR TO THE MINISTER OF SCIENCE AND EDUCATION CONDUCTS A SEMINAR

On May 10, a seminar on "Green Technology and Geopolitics of Climate Changes" by Nijat Mammadli, advisor to the Minister of Science and Education of the Republic of Azerbaijan, was held at Khazar University. Dr. Orkhan Valiyev, head of the Department of Political Sciences and Philosophy, Farida Tatardar, head of the Department of Physics and Electronics, faculty, doctoral students and undergraduate students of the Department of Political Sciences and Philosophy of Khazar University took part in the seminar.

The workshop covered green technology, geopolitics of climate change, responses to these changes and other issues. Nijat Mammadli also analyzed the climate change by years and gave information about the measures to be taken until 2050. After the presentation, students' questions were answered. The seminar ended with the presentation of a gift to Nijat Mammadli by Orkhan Valiyev.



# MANİSA CELAL BAYAR UNİVERSİTETİNDƏ BEYNƏLXALQ KONFRANS

# INTERNATIONAL CONFERENCE AT MANISA CELAL BAYAR UNIVERSITY



*Manisa Celal Bayar Universitetinin prorektoru Prof. Kadir Ay, Milana Abbasova*

Mayın 9-11 də Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin və Türkiyənin Manisa Celal Bayar Universitetinin (MCBU) İngilis dili və ədəbiyyatı departamentinin birgə təşkilatçılığı ilə "Dil, Ədəbiyyat və Dilçilik Fəlsəfəsi üzrə Dördüncü Beynəlxalq Konfrans (ICPL 2024)" hibrid formatda keçirildi. Konfransa təqdim edilən məqalələr Azərbaycan, Avstraliya, Bolqarıstan, Fransa, Gürcüstan, İndoneziya, İran, İtaliya, Hindistan, Qazaxıstan, Litva, Malayziya, Hollandiya, Oman, Pakistan, Polşa, Rumıniya, Rusiya, Səudiyyə Ərəbistanı, Tayvan, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Amerika Birləşmiş Ştatları və Özbəkistandan olan tədqiqatçılar tərəfindən göndərilmişdi.

Konfransın açılış mərasimi MCBU-nun prorektoru Prof. Kurt Ay, universitetin İngilis dili və ədəbiyyatı departamentinin müdiri Prof. Məryəm Ayan və Xəzər Universitetinin İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasovanın giriş nitqləri ilə başladı. Sonra musiqi qrupunun ifasında milli musiqilər təqdim olundu.

Dr. Alan Libert (Xəzər Universitetinin köməkçi professoru, Nyukasl Universitetinin professoru, Avstraliya), Dr. Davud Kuhi (Xəzər Universitetinin köməkçi professoru, Azad İslam Universitetinin professoru, İran) və Prof. Toril Moi (Dyuk Universitetinin professoru, İngiltərə) əsas məruzələrlə çıxış etdilər.

Açılış mərasimindən sonra müxtəlif universitetlərdən olan tədqiqatçılar beş paneldə olmaqla iki sessiyada çıxış ediblər.

Konfransın birinci günü canlı çıxışlar dinlənildi, ikinci gün isə onlayn qaydada keçirildi.

Konfransın sonuncu günü iştirakçılar üçün görməli yerlərə tur təşkil olundu.

On May 9-11, the 4th International Conference on the Philosophy of Language, Literature, and Linguistics, ICPL2024 (ICPL 2024), was held in a hybrid format under the joint organization of Khazar University's English Language and Literature Department and Manisa Celal Bayar University's English Language and Literature Department. The articles included in the conference were sent by researchers from Azerbaijan, Australia, Bulgaria, France, Georgia, Indonesia, Iran, Italy, India, Kazakhstan, Lithuania, Malaysia, Netherlands, Oman, Pakistan, Poland, Romania, Russia, Saudi Arabia, Taiwan, Türkiye, United Arab Emirates, United Kingdom, United States of America, and Uzbekistan.

The opening ceremony of the conference began with the welcome speeches of Prof. Kurt Ay, vice-rector of MCBU; Prof. Maryam Ayan, head of the Department of English Language and Literature of MCBU; and Dr. Milana Abbasova, head of the Department of English Language and Literature of Khazar University. Then, national music performed by university's music band was presented.

Later, the keynote speakers – Dr. Alan Libert (the adjunct professor of Khazar University/professor at Newcastle University, Australia), Dr. Davud Kuhi (the adjunct professor of Khazar University/professor of Islamic Azad University, Iran), and Prof. Toril Moi (professor of Duke University, England) – delivered their keynote speeches.

After the opening ceremony, researchers from different universities spoke in two sessions with five panels each.

The first day of the conference was devoted to in-person participants, whereas on the second day, online participants presented their papers.

On the last day of the conference, a sightseeing tour was organized for the participants.

# İSTANBUL AYDIN UNİVERSİTETİNİN QURUCUSU MUSTAFA AYDIN XƏZƏR UNİVERSİTETİNDƏ

# FOUNDER OF ISTANBUL AYDIN UNIVERSITY AT KHAZAR UNIVERSITY





*Mustafa Aydın*

Mayın 10-da İstanbul Aydın Universitetinin qurucusu Mustafa Aydının Xəzər Universitetinə səfəri baş tutub.

Səfər çərçivəsində universitetdə fəxri qonaqla görüş keçirilib. Görüşdə Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, eləcə də Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva, koordinatoru Əli Mirzəzadə iştirak ediblər.

Təhsil ocaqları arasında qarşılıqlı əlaqələrin gücləndirilməsi, ortaq əməkdaşlıqların inkişafı və bir sıra digər məsələləri müzakirə olunub.

Sonra Mustafa Aydın Xəzər Universitetinin tələbələri üçün seminar keçirib. Seminarda təhsildə strateji idarəetmədən, keyfiyyətin təminatından və qlobal təhsil strategiyalarından bəhs edilib



*"Dünya" məktəbində direktor Mərufə Mədətli ilə görüş*

Mustafa Aydın, the founder of Istanbul Aydın University, visited Khazar University on May 10, 2024. As part of the visit, a meeting with the guest of honor was held at the University. Rector of Khazar University Assoc. Prof. Irada Khalilova, Director of Public Relations and Media Alovsat Amirbeyli, as well as Director of International Relations Department Fatima Valiyeva and Coordinator Ali Mirzazade participated in the meeting.

The meeting discussed the topics such as the strengthening of mutual relations between educational institutions, the development of joint cooperation and a number of other issues in the process of mutual exchange of ideas. Then Mustafa Aydın held a seminar for students of Khazar University. Strategic management in education, quality assurance and global education strategies were discussed at the seminar.

## "İŞĞAL ALTINDA OLAN TORPAQLARDA TÖRƏDİLƏN EKOLOJİ TERROR" MÖVZUSUNDA AÇIQ MÜHAZİRƏ

## OPEN LECTURE ON "ENVIRONMENTAL TERRORISM COMMITTED IN OCCUPIED LANDS"

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP 29-un bu ilin noyabrında Bakıda keçiriləcəyi ilə əlaqədar Azərbaycanda müxtəlif işlər görülür. Dünya üçün önəmli olan beynəlxalq konfransla bağlı Xəzər Universiteti də bir sıra tədbirlər planı həyata keçirir. Bunlardan biri də universitet tələbələrinin COP 29 -la bağlı müxtəlif istiqamətli maarifləndirilməsidir.

Mayın 15-də universitetin Tarix və arxeologiya departamentinin müəllimi, tarix üzrə fəlsəfə doktoru Bayram Quliyevin tələbələr üçün "İşğal altında olan torpaqlarda törədilən ekoloji terror" mövzusunda açıq mühazirəsi təşkil olunub. Qarabağın böyük bir hissəsini gəzərək əldə etdiyi bilgiləri ekoloji terror kontekstində tələbələrlə bölüşən B. Quliyev müqayisə üçün bölgələrin əski və işğaldan azad olunandan sonrakı fotolarından istifadə edib.

In our country, various initiatives are underway in preparation for the 29th session of the Conference of the Parties to the United Nations Framework Convention on Climate Change - COP 29, which will be held in Baku this November. Khazar University is actively involved in organizing events related to this significant international conference, which holds importance not only for the nation but also for the global community. One such initiative is the education of university students on various aspects related to COP 29. On May 15, the lecturer of the University's Department of History and Archeology Bayram Guliyev, PhD in History, presented an open lecture for students on the topic "Environmental Terrorism Committed in Occupied Lands". B. Guliyev, who shared the knowledge he gained by visiting a large part of Karabakh in the context of environmental terrorism, used comparative photos depicting the regions before and after liberation from occupation into his presentation.

## PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞI SOSİAL TƏDQİQATLAR MƏRKƏZİNDƏ

## PSYCHOLOGY DEPARTMENT STAFF MEMBER AT THE CENTER FOR SOCIAL STUDIES

Mayın 15-də "Beynəlxalq Ailə Günü"ndə Sosial Tədqiqatlar Mərkəzi tərəfindən "Azərbaycan ailəsi: dəyişən və dəyişməyən dəyərlər" konfransı təşkil edilmişdir. Konfranda içtimaiyyətə açıq olan müasir ailələlərin problemləri və gələcək perspektivləri müzakirə olunmuşdur.

Xəzər Universitetinin Psixologiya departamentinin əməkdaşı Mələk Kərimova konfransda "Uşaq" böyüklərin ailə çətinlikləri" mövzusunda çıxış etmişdir. O, çıxışında yetkin olmayan şəxslərin ailələrdəki ünsiyyət dinamikalarını açıqlayaraq, ailədəki problemlərin yaranmasına təsir mexanizmləri üzərində dayanmışdır.

Konfransda Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov, Sosial Tədqiqatlar Mərkəzi İdarə heyətinin sədri millət vəkili Zahid Oruc, Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri Humay Axundzadə də çıxış ediblər. Humay Axundzadə "Müasir Azərbaycan ailəsi hesabatı əsasında Azərbaycan ailəsinin ənənəvi və yenilənən cəhətləri" mövzusunda 2023-cü il ərzində 3478 şəxs üzərində aparılan tədqiqatın analitik hesabatını təqdim etdi. Hesabatın tərtib olunmasında əsas məqsəd ailə ilə bağlı problemləri ictimaiyyətin nəzərinə çatdırmaq idi.

Sonra mövzu ətrafında müzakirələr təşkil edilərək, təkliflər dəyərləndirildi.

On May 15, the "Azerbaijani Family: Changing and Immutable Values" conference was organized by the Social Research Center on "International Family Day". The problems and future prospects of modern families, open to the public, of the conference were discussed. Malak Karimova, an employee of Khazar University's Department of Psychology, spoke at the conference on " Challenges Faced by "Childish" Adults in Family Life". In her speech, she explained the communication dynamics of immature persons in families and focused on the mechanisms of influence on the emergence of problems in the family.

The executive director of the Social Research Center Sahib Mammadov, deputy Zahid Oruj, the chairman of the Board of the Social Research Center, and Humay Akhundzade, the sector manager of the Social Research Center, also spoke at the conference. Humay Akhundzade presented to the public the analytical report of the research conducted on 3478 people in 2023 on the topic of "Traditional and updated aspects of the Azerbaijani family" based on the "Modern Azerbaijani family report". The main goal of the report was to present issues reflecting family problems to a wide audience.

Later, discussions were organized around the topic and proposals were evaluated.



*Cumali Şabanov*

## DAŞKƏND DÖVLƏT ŞƏRQŞÜNASLIQ UNİVERSİTETİNİN TÜRKOLOGİYA FAKÜLTƏSİNİN DEKANI XƏZƏR UNİVERSİTETİNDƏ

Mayın 2-də Xəzər Universitetinin Nərimanov kanpusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Azərbaycanda səfərdə olan Daşkənd Dövlət Şərqşünaslıq Universiteti Türkologiya fakültəsinin dekanı Dos. Cumali Şabanovun professor-müəllim heyəti və tələbələrlə görüşü təşkil olunub. Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova Özbək-Azərbaycan ədəbi-mədəni əlaqələrinin əhəmiyyətindən və Azərbaycan dövlətinin türk dünyası ilə sıx əməkdaşlıq siyasətindən söhbət açaraq, qonağı təqdim edib.

Tərcüməçi-alim Daşkənd Universitetində Azərbaycan dilinin tədris prosesi haqda məlumat verib. Cumali Şabanov Ümummilli Lider Heydər Əliyevlə bağlı xatirələrini tələbələrlə bölüşüb. Ulu Öndərin türk dünyasına xidmətlərindən söhbət açıb. Azərbaycan və özbək ədəbiyyatından müxtəlif nümunələr səsləndirən alim tələbələri maraqlandıran sualları cavablandırıb. Cumali Şabanov tələbələrin Azərbaycan-Özbəkistan ədəbi-mədəni əlaqələri və türk dünyası ilə bağlı müxtəlif suallarını cavablandırıb. Görüşün yekununda qonağa Xəzər Universitetinin hədiyyəsi təqdim edilib.

## DEAN OF TURKIC STUDIES FACULTY OF TASHKENT STATE UNIVERSITY OF ORIENTAL STUDIES AT KHAZAR UNIVERSITY

On May 2, Dean of Turkic Studies Faculty of Tashkent State University of Oriental Studies, Assoc. Prof. Jumali Shabanov, who is on a visit to our country as part of the VI World Intercultural Dialogue Forum, held a meeting with faculty and students at Khazar University Narimanov Campus. Assoc. Prof. Dilbar Zeynalova, head of the Department of Languages and Literatures, introduced the guest by talking about the importance of Uzbek-Azerbaijani literary and cultural relations and the policy of close cooperation of the Azerbaijani state with the Turkic world.

The translator-scientist gave information about the teaching process of the Azerbaijani language at Tashkent University. Jumali Shabanov shared his memories of National Leader Heydar Aliyev with the students. He talked about the Great Leader's services to the Turkish world. Reciting various examples from Azerbaijani and Uzbek literature, the scientist answered the students' questions. Jumali Shabanov answered various questions of the students about Azerbaijan-Uzbekistan literary and cultural relations and the Turkic world. At the end of the meeting, the guest was presented with a gift from Khazar University.



## DIRNA LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏCƏK YAY MƏKTƏBİNİN MÜZAKİRƏSİ

## DISCUSSION OF SUMMER SCHOOL TO BE HELD WITHIN DIRNA PROJECT

Mayın 3-də Xəzər Universitetinin koordinatorluğu ilə həyata keçirilən "Azərbaycanda İnstitusional Repozitoriyalar Şəbəkəsi Vasitəsilə Tədqiqat Potensialının İnkişafı" (DIRNA) adlı layihənin növbəti onlayn görüşü keçirilib.

Görüşdə Xəzər Universitetinin və Avropa tərəfdaşları - Jyväskylä Universiteti (Finlandiya), L`Aquila Universiteti (İtaliya) və İzmir Texnologiya İnstitutunun (Türkiyə) əməkdaşları iştirak ediblər. Görüş Xəzər Universitetinin İnkişaf Mərkəzinin direktoru Raziyə İsayevanın moderatorluğu ilə baş tutub. Görüşdə, həmçinin, Xəzər Universitetinin Keyfiyyət Təminatı Mərkəzinin direktoru Ljudmila Sotova, Kitabxana İnformasiya Mərkəzinin direktor müavini Aytac Misgərli iştirak ediblər.

Görüşdə layihənin növbəti tədbiri - Gəncə Dövlət Universitetində keçiriləcək yay məktəbinin proqramı müzakirə olunub. İzmir Texnologiya İnstitutunun kitabxana müdiri Gültəkin Gürdal yay məktəbi ilə bağlı hazırladığı proqramın nümunəsini təqdim edib. Jyväskylä Universitetinin əməkdaşı Kati Clements və l'Aquila Universitetinin nümayəndələri Massimiliano D`Innocenzo və Anna Tozzi öz təkliflərini irəli sürüblər və növbəti onlayn görüşün vaxtı, eyni zamanda ona qədər görüləcək işlər müəyyən olunub.

DIRNA layihəsi Azərbaycanın səkkiz ali təhsil müəssisəsində 3 il ərzində (2023-2026) hər kəsə əlçatan İnstitusional Repozitoriyalar (Elektron Arxivlər) Şəbəkəsinin yaradılmasına, universitetlərin tədqiqat potensialının artırılmasına xidmət edəcək.

On May 3, the next online meeting of the DIRNA project " Developing Research Capacity through Institutional Repositories Network in Azerbaijan" was coordinated by Khazar University. Representatives of Khazar University and European partners Jyväskylä University (Finland), Università degli Studi dell'Aquila (Italy), Izmir Institute of Technology (Türkiye) participated in the meeting. The meeting was moderated by Raziya Isayeva, director of the University's Development Center. The next step of the project was the discussion of the summer school program to be held at Ganja State University. Head of Quality Assurance Center of Khazar University Ludmila Sotova, deputy director of Library Information Center Aytac Misgarli also participated in the meeting.

Gultekin Gurdal, the library manager from the Izmir Institute of Technology (Türkiye), presented a sample program for the summer school. Kati Clements from the University of Jyväskylä (Finland), along with Massimiliano D'Innocenzo and Anna Tozzi from Università degli Studi dell'Aquila (Italy), shared their proposals. The schedule for the next online meeting was set, and tasks to be completed before then were outlined.

The DIRNA project, spanning three years (2023-2026) and involving eight higher education institutions in Azerbaijan, aims to enhance the research capacity of universities by creating a Network of Institutional Repositories (Electronic Archives) accessible to all, and by managing research outcomes effectively.

# DUBNANIN BİRLƏŞMİŞ NÜVƏ TƏDQİQATLARI İNSTİTUTUNUN NÜMAYƏNDƏ HEYƏTİ XƏZƏR UNİVERSİTETİNDƏ





*Sergey Yakovenko*

# DELEGATION OF THE JOINT INSTITUTE FOR NUCLEAR RESEARCH LOCATED AT DUBNA AT KHAZAR UNIVERSITY

Aprelin 29-dan mayın 3-dək Xəzər Universitetində Dubnanın (Rusiya) Birləşmiş Nüvə Tədqiqatları İnstitutu (BNTİ) və V.P.Celepov adına Nüvə problemləri laboratoriyasının əməkdaşları tərəfindən "Müasir nüvə fizikası və onun bəzi tətbiqləri" mövzusunda silsilə mühazirələr oxundu. Mühazirələri dinləmək üçün Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin professor-müəllim heyəti, bakalavr, magistr tələbələri və doktorantları, eləcə də digər təşkilatlardan və universitetlərdən qonaqlar dəvət

From April 29 to May 3, a series of lectures on "Modern Nuclear Physics and Its Applications" were held by the delegation of Dubna's (Russia) Joint Institute for Nuclear Research (JINR) at Khazar University. Faculty members, undergraduate and graduate students and doctoral students of Khazar University's School of Sciences and Engineering, along with guests from other organizations and universities, were invited to listen to the lectures. The lectures continued for 5 days in the form of discussions and garnered great interest.



olunmuşdular. Mühazirələr beş gün davam etdi və müzakirələr aparıldı.

Aprelin 29-da BNTİ-nin nümayəndə heyəti ilə Xəzər Universitetinin rəhbərliyi arasında görüş keçirildi. Görüşdə Xəzər Universiteti tərəfindən Direktorlar və Qəyyumlar Şurasının Sədri Prof.Akad. Hamlet İsaxanlı, rektor İradə Xəlilova, Tədris işləri üzrə prorektor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, Keyfiyyətin təminatı mərkəzinin direktoru Lyudmila Sotova, İnkişaf ofisinin direktoru Raziyə İsayeva, Fizika və elektronika departamentinin müdiri Fəridə Tatardar, Riyaziyyat departamentinin müdiri Əli Hüseynli, Neft mühəndisliyi departamentinin müdiri Elşən Abdullayev, Həyat elmləri departamentinin müdiri Cəmalə Eldarova və Mexanika mühəndisliyi departamentinin koordinatoru Mehdi Kiyasatfar iştirak etdilər. Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun nümayəndə heyətinin tərkibinə isə V.P.Celepov adına Nüvə problemləri laboratoriyasının direktoru Yevgeni Yakuşev, həmin labaratoriyanın əməkdaşları Daniya Zinatulina, Sergey Yakovenko, Sergey Rozov və BNTİ -da Azərbaycanın milli qrupunun rəhbəri Nazim Hüseynov daxil idi.

Görüş zamanı BNTİ ilə Xəzər Universiteti arasında əməkdaşlığın inkişaf etdirilməsi imkanları, əsasən ən perspektivli sahələr - mühəndislik, təbiət və informasiya elmləri, nəzəri və tətbiqi fizika, kimya, biologiya, nanotexnologiya və riyaziyyat sahələri

(*Ardı səh.56-da*)



*Sevinc Quluzadə, Yevgeni Yakuşev, Fəridə Tatardar*

On April 29, an official meeting was held between the delegation of the Joint Institute for Nuclear Research of Dubna and the management of Khazar University. During the meeting, the parties discussed the possibilities of developing cooperation between JINR and Khazar University. Engineering, natural and information sciences, theoretical and applied physics, chemistry, biology, nanotechnology and mathematics were discussed among the most promising areas of interaction. The meeting was attended by Prof. Acad. Hamlet Isakhanli, chairman of the Board of Directors and trustees, Irada Khalilova, rector of the university, Mahammad Nuriyev, vice-rector for Academic Affairs, Isakhan Isakhanli, vice-rector for Management and Student Affairs, Fakhranda Afendiyeva, dean of the School of Sciences and Engineering, Ludmila Sotova, director of the Quality Assurance Center, Raziya Isayeva, director of the Development Office, Farida Tatardar, head of Physics and Electronics Department, Ali Huseynli, head of Mathematics Department, Elshan Abdullayev, head of Petroleum Engineering Department, Jamala Eldarova, head of Life Sciences Department and Mehdi Kiyasatfar, coordinator of Mechanical Engineering Department. The delegation of the Joint Institute for Nuclear Research included Yevgeny Yakushev, director of the V. P. Dzhelepov Laboratory of Nuclear Problems, employees of that laboratory, Daniya Zinatulina, Sergey Yakovenko, Sergey Rozov, and Nazim Huseynov, the head of the national group of

(*To be continued page 56*)




*İradə Xəlilova, Daniya Zinatulina*

müzakirə edildi.

Təhsil sahəsində tərəflər Xəzər Universiteti ilə BNTİ arasında əlaqələrin inkişafı, BNTİ-nin elmi infrastrukturu əsasında universitetdə təhsil alan tələbələr üçün təhsil proqramlarının və təcrübə keçmələrinin təşkili, həmçinin BNTİ-nin alimlərinin Xəzər Universitetinin tədris prosesinə cəlb edilməsi və akademik mobillik sahəsində əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduqlarını bildirdilər. Hamlet İsaxanlının öz şərhində qeyd etdiyi kimi, səfərin məqsədi Xəzər Universiteti ilə BNTİ arasında




daha güclü elmi əlaqələrin qurulmasıdır. Gələcəkdə Xəzər Universitetində BNTİ-nin aparıcı alimlərinin iştirak edəcəyi bir sıra konfransların, seminarların və tələbələrlə görüşlərin təşkil ediləcəyi də nəzərdə tutuldu.

Növbəti günlərdə BNTİ-nin nümayəndə heyəti Xəzər Universitetinin digər kampusları ilə, həmçinin "Dünya" məktəbi ilə də tanış oldular. Nümayəndə heyəti məktəb rəhbərliyi ilə səmərəli müzakirələr apardı, sinif otaqları, kitabxana və laboratoriya da daxil olmaqla obyektlərə geniş baxış keçirildi.

Azerbaijan at JINR.

One of the main points of the work program of the trip was a series of lectures organized by the delegation of the Dzhelepov Laboratory of Nuclear Problems of JINR. On the other hand, enhancing relations between Khazar University and JINR in the field of science and education was discussed, and the organization of educational programs and internships for students studying at the university based on the




*Sergey Rozov*

scientific infrastructure of JINR was discussed. In the discussions, it was also stated that JINR scientists are interested in involving Khazar University in the educational process and developing cooperation in the field of academic mobility. As Hamlet Isakhanli mentioned in his comment, the purpose of the visit is to establish stronger scientific ties between Khazar University and JINR. In the future, a number of conferences, seminars and meetings with students will be organized at Khazar University in which the leading scientists of JINR will participate.

In the following days, the delegation of the Joint Institute for Nuclear Research (JINR) got acquainted with other campuses of Khazar University, as well as with the campuses of the Dunya School. During the visit, the delegation held fruitful discussions with the school management, and had an extensive inspection of the facilities, including classrooms, library and laboratory. In addition, the guests had the opportunity to visit the school's Nailekhanim museum.

One of the highlights of the visit was the exploration of potential opportunities for cooperation between JINR and the Dunya IB School. Discussions continued with the possibility of the school's physics teachers visiting JINR, as well as suggestions for organizing experiences for selected students of Dunya IB School.






*Nazim Hüseynov*




Qonaqlar məktəbin Nailəxanım muzeyini ziyarət etdilər.

Səfərdə diqqət çəkən məqamlardan biri də BNTİ ilə "Dünya" IB Məktəbi arasında əməkdaşlıq üçün potensial imkanların araşdırılması oldu. Məktəbin fizika müəllimlərinin BNTİ-yə səfər imkanları, eləcə də "Dunya" IB məktəbinin seçilmiş tələbələri üçün təcrübələrin təşkili təklifləri müzakirə edildi.



# PAKİSTAN MİLLİ ELMLƏR VƏ TEXNOLOGİYA UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ XƏZƏR UNİVERSİTETİNDƏ

# REPRESENTATIVES OF PAKISTAN NATIONAL UNIVERSITY OF SCIENCE AND TECHNOLOGY AT KHAZAR UNIVERSITY



*Rizwan Riaz, Sana Maqbool, Ambreen Munir, Fawad Kashan*

Mayın 7-də Xəzər Universitetində Pakistan Milli Elmlər və Texnologiya Universitetinin (İslamabad şəhəri) nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə qonaqlardan Tədqiqat, innovasiya və kommersiyalaşdırma prorektoru, Dr. Rizvan Riaz, İnnovasiya və kommersiyalaşdırma ofisinin (ICON) direktoru Sana Maqbool, Korporativ əlaqələr üzrə baş menecer Fawad Kashan, Texnologiya transfer ofisinin meneceri Ambreen Munir, Xəzər Universitetinin rektoru Dos. .İradə Xəlilova, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekan müavini Günel Bahəddinova, Təbiət elmləri və mühəndislik fakültəsinin müəllimi Hafiz Mohammad Azeem Akram iştirak ediblər.

Görüş universitetlər arasında akademik əməkdaşlığı artırmaq məqsədi daşıyıb və bu strateji tərəfdaşlığın bir hissəsi kimi NUST fənlərarası kəşfiyyat və innovasiyalar üçün birgə tədqiqat laboratoriyalarının yaradılması təklif olunub. Xəzər Universiteti elmi fikirlərin mübadiləsini asanlaşdırmaq və canlı intellektual icma yetişdirmək üçün birgə konfransların keçirilməsini məqsədəuyğun sayıb. Görüşün sonunda hər iki qurum Anlaşma Memorandumunun hazırlanması prosesinə başlamaq barədə razılığa gəliblər.

On May 7, a meeting was held with the delegation of the Pakistan National University of Sciences and Technology operating in Islamabad at Khazar University. Among the guests at the meeting were Pro-Rector for Research, Innovation & Commercialisation Dr. Rizwan Riaz, Innovation and Commercialization Office (ICON) Director Sana Maqbool, Manager Corporate Relations Fawad Kashan, Technology Transfer Manager Ambreen Munir, Khazar University Rector Assoc. Prof. Irada Khalilova, Economics and Management School Dean Jeyhun Mammadov, Dean of the School of Science and Engineering Fakhranda Efendiyeva, Deputy Dean of the Graduate School of Science, Art and Technology Gunel Bahaddinova, lecturer of the School of Science and Engineering Hafiz Mohammad Azeem Akram .

The meeting aimed to enhance academic cooperation between the universities and as part of this strategic partnership, NUST proposed the establishment of joint research laboratories for interdisciplinary exploration and innovation. In response to this, Khazar University deemed it suitable to hold joint conferences to facilitate the exchange of scientific ideas and cultivate a lively intellectual community. At the end of the meeting, both institutions agreed to start the process of drafting a Memorandum of Understanding (MOU).

# YAPONİYANIN ASİYA İNKİŞAF BANKININ NƏZDİNDƏKİ İNSTİTUTUN NÜMAYƏNDƏ HEYƏTİ XƏZƏR UNİVERSİTETİNDƏ

# JAPAN'S ASIAN DEVELOPMENT BANK INSTITUTE DELEGATION VISITS KHAZAR UNIVERSITY

Mayın 10-da Yaponiyanın Asiya İnkişaf Bankının nəzdindəki institutun rəhbəri Tetsushi Sonobe və institut direktorunun baş məsləhətçisi Nicolas J.A Buchoud ilə Xəzər Universitetində görüş keçirilib.

Görüşdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, rektor Dos.İradə Xəlilova, Tədris işləri üzrə prorektor professor Məhəmməd Nuriyev, İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin elmi işlər üzrə dekan müavini Günel Bahəddinova və Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Arzu Bədəlova iştirak ediblər.

Görüş zamanı ilkin olaraq Arzu Bədəlova universitet haqqında ətraflı məlumat verib, sonra isə İnqilab Əhmədov universitetin iqtisadiyyat və biznes fəaliyyəti barədə danışıb.

Əsas müzakirə mövzusu isə bu ilin noyabr ayında Azərbaycanın ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) barədə və ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq olub.

On May 10, a meeting was held at Khazar University with Mr. Tetsushi Sonobe, the head of Japan's Asian Development Bank Institute, and Nicolas J. A. Buchoud, chief advisor to the director of the Institute.

The meeting was attended by Prof. Acad. Hamlet Isakhanli, Rector Assoc. Prof. Irada Khalilova, Professor Mahammad Nuriyev, vice-rector for Academic Affairs, Isakhan Isakhanli, vice-rector for Management and Student Affairs, Ingilab Ahmadov, dean of the Graduate School of Economics and Business, Raziya Isayeva, Director of Development Office, Lyudmila Sotova, director of Quality Assurance Center, Fakhranda Efendiyeva, dean of the School of Science and Engineering, Gunel Bahaddinova, deputy dean for Scientific Affairs of the Graduate School of Science, Art and Technology and coordinator of International Relations Department Arzu Badalova.

During the meeting, Arzu Badalova first gave detailed information about the university, and then Ingilab Ahmadov spoke about the economy and business activities of the university.

The primary focus of the discussion was the 29th session of the Conference of the Parties (COP29) of the UN Framework Convention on Climate Change, to be held in Azerbaijan this November, and the potential for cooperation in environmental protection.



*Tetsushi Sonobe, Nicolas J.A Buchoud, Hamlet İsaxanlı*

## XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏ HEYƏTİ PAKİSTAN İSLAM RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNDƏ

## KHAZAR UNIVERSITY DELEGATION VISITS EMBASSY OF THE ISLAMIC REPUBLIC OF PAKISTAN IN AZERBAIJAN

Mayın 16-da Xəzər Universitetinin nümayəndə heyəti Pakistan İslam Respublikasının Azərbaycandakı səfirliyində olub. Görüşdə Pakistanın Azərbaycandakı Fövqəladə və səlahiyyətli səfiri Bilal Haye, Xəzər Universitetindən Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva, Kompüter elmləri departamentinin müəllimi Hafiz Muhammad Azeem Akram və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Fatimə Vəliyeva iştirak ediblər.

Qarşılıqlı fikir mübadiləsi prosesində Xəzər Universiteti ilə Pakistan universitetləri arasında elm və mühəndislik tədqiqatı sahəsində uzunmüddətli əməkdaşlıq istiqamətləri müzakirə olunub. Tərəflər arasında tələbə mobilliyi, akademik mübadilələrin təşkil olunması imkanları nəzərdən keçirilib. Sonda isə qarşılıqlı hədiyyələr təqdim olunub.

On May 16, the Khazar University delegation visited the Embassy of the Islamic Republic of Pakistan in Azerbaijan. Ambassador Extraordinary and Plenipotentiary of Pakistan to Azerbaijan Bilal Haye, Dean of School Sciencs and Engineering of Khazar University Fakhranda Efendiyeva, Lecturer of Computer Science Department Hafiz Muhammad Azeem Akram and Head of International Relations Department Fatima Valiyeva took part in the meeting.

During the exchange of ideas, potential long-term collaborations in science and engineering research between Khazar University and Pakistani universities were explored. The prospects for organizing student mobility and academic exchanges between the institutions were also considered. At the end of the meeting, mutual gifts were exchanged.




*Fəxrəndə Əfəndiyeva, Bilal Haye, Fatimə Vəliyeva, Hafiz Muhammad Azeem Akram*



*Ülvi Babasoy, Qardaşxan Əzizxanlı*

# "ƏDƏBİYYATDA POSTMODERNİZM: OYUN ESTETİKASI" KİTABININ TƏQDİMATI

# "POSTMODERNISM IN LITERATURE: GAME AESTHETICS" BOOK PRESENTATION EVENT

Mayın 15-də Xəzər Universitetinin Nərimaov kampusunda tənqidçi-esseist, universitetin Dillər və ədəbiyyatlar departamentinin dosenti Ülvi Babasoyun "Hədəf" nəşrlər evinin dəstəyi ilə çap olunan "Ədəbiyyatda postmodernizm: oyun estetikası" kitabının təqdimatı və imza günü keçirilib.

Departamentin müəllimi Dr. Qardaşxan Əzizxanlı tədbiri giriş sözü ilə açaraq, kitabın üstün məziyyətlərindən danışıb. Sonra müəllif çıxış edərək, bu dərs vəsaitini tələbələrinə ithaf etdiyini söyləyib və ümumilikdə postmodernizm və onun xüsusiyyətləri haqqında yığcam məlumat verib. Professorlardan Seyfəddin Rzasoy, Bədirxan Əhmədov, departamentin müəllimləri Dr. Zəminə Ziyayeva, Dr. Ramil Əhməd, departamentin magistr məzunu İlknur Əsgərova, Bakı Mühəndislik Universitetinin müəllimləri - Pedaqoji təcrübə şöbəsinin müdiri Dr. Həzi Qasımov, Azərbaycan dili və pedaqogika kafedrasının baş müəllimi Dr. Rəhman Quliyev, yazarlardan Nərmin Kamal, Şərif Ağayar, Qan Turalı, Səxavət Sahil, Mübariz Örən, "Hədəf" nəşrlər evinin direktoru Səbuhi Şahmursoy, kitabın redaktoru Cavid Qədir bu nəşrin ədəbiyyatşünaslıq elminə dəyərli töhfə olduğunu, mövcud sahədəki boşluğu dolduracağına ümid etdiklərini vurğulayıblar.

Tədbirin sonunda Ü.Babasoy kitablarını imzalayıb.

On May 15, the presentation and signing day of the book "Postmodernism in Literature: Game Aesthetics" published by the critic-essayist, associate professor of the Department of Languages and Literatures of Khazar University Ulvi Babasoy, published with the support of "Hadaf" publishing house, was held. The lecturer of the department, Dr. Gardashkhan Azizkhanli, opened the event with an introduction and talked about the outstanding merits of the book. Then the author made a speech, said that he dedicated this textbook to his students and gave a brief information about postmodernism and its features in general.

Professors Seyfaddin Rzasoy, Badirkhan Ahmadov, lecturers of the Department Dr. Zamina Ziyayeva, Dr. Ramil Ahmad, MA graduate of the Department Ilknur Asgarova, lecturers of BEU-head of Internship Department, PhD in physics Hazi Gasimov, senior instructor of the Department of Azerbaijani Language and Pedagogy Dr. Rahman Guliyev, authors Narmin Kamal, Sharif Agayar, Gan Turali, Sakhavat Sahil, Mubariz Oran, director of "Hadaf" publishing house Sabuhi Shahmursoy, editor of the book Javid Gadir all emphasized that the book is a valuable contribution to the science of literary criticism, and expressed hope that it will address existing gaps in the field.

At the end of the event, Ulvi Babasoy signed copies of his book.

# İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİ 2-Cİ MİLLİ ARDICIL TƏRCÜMƏ MÜSABİQƏSİ KEÇİRDİ






*Hamlet İsaxanlı*

# ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT HOLDS 2ND NATIONAL CONSECUTIVE INTERPRETATION CONTEST

Mayın 15-də Xəzər Universitetinin Mərmər zalında İngilis dili və ədəbiyyatı departamentinin təşkil etdiyi "2-ci Milli Ardıcıl Tərcümə Müsabiqəsi"nin final mərhələsi keçirildi. Müsabiqədə respublikanın 4 universitetindən tərcümə ixtisası üzrə təhsil alan 8 finalçı iştirak etdi. Qeyd edək ki, finalçılar üç mərhələli seçim əsasında müəyyən olunmuşdu.

Tədbiri İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasova açdı. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şu-

On May 15, the final of the "2nd National Consecutive Interpretation Contest" organized by the Department of English Language and Literature was held at Khazar University's Marble Hall. 8 finalists majoring in translation from 4 universities of the country took part in the contest. Note that the finalists were determined on the basis of a three-stage selection.

The event started with the greeting by Dr. Milana Abbasova, the head of the Department of English Language and Literature. Then Prof. Acad. Hamlet




*İrina Orucova, Lidiya Həmidova, Fialə Abdullayeva, Elvin Abbasbəyli*



*Zəhra Əhədova, Cavid Novruzov, Gülsün Həmidova, İradə Xəlilova, Xəyalə Məmmədova*

rasının sədri Prof. Akad. Hamlet İsaxanlı və universitetin rektoru Dos. İradə Xəlilova açılış nitqi söylədilər. Sonra iştirakçılar ingilis, Azərbaycan və rus dillərində olan canlı çıxışları tərcümə etdilər. Qonaq məruzəçilər Vahid Əsgəri, Gülafət Şəfiyeva və Qriqorii Penkov idi. Vahid Əsgəri (fil.ü.f.d., Beynəlxalq Biznes Məsləhətçisi və İngilis dilinin tədrisi üzrə mütəxəssis) "Ardıcıl tərcümənin əhəmiyyəti və bacarıqları" mövzusunda məruzə etdi. Xəzər Universitetinin müəllimləri olan ikinci məruzəçi Gülafət Şəfiyeva və üçüncü məruzəçi Qriqorii Penkov`un çıxışları COP 29-a həsr olundu. Qeyd edək ki, "2024-cü il Bakı İqlim Dəyişikliyi Konfransı" və ya COP 29 BMT-nin təşkilatçılığı ilə

*(Ardı səh.64-də)*

Isakhanli, founder of Khazar University and chairman of the Board of Directors and Trustees and Assoc. Prof Irada Khalilova, the rector of Khazar University delivered their welcome notes. Then the participants translated live speeches into English, Azerbaijani and Russian. The guest speakers were Vahid Asgari, Gulafat Shafiyeva and Grigorii Penkov. Vahid Asgari, (LING, BC, Int'l Business Affairs Consultant & ESL/EFL Instructor) delivered a speech on "Consecutive Interpretation: Importance and skills". The second speaker Gulafat Shafiyeva (Lecturer, Khazar University) and third speaker Grigorii Penkov (Lecturer, Khazar University) dedicated their speeches to COP 29. It should be mentioned that "The

*(To be continued page 64)*




*Zamirə Qurbanova, Nəsimi Həsənov, İsrafil Xakiyev*



*Ləman Qurbanzadə (Bakı Slaviyan Universiteti), Xəyyam Əsədov (Azərbaycan Universiteti), Milana Abbasova, Elbrus İsmayılov (Bakı Slavyan Universiteti), Asif Məmmədov (Xəzər Universiteti)*

2024-cü il noyabrın 11-dən 22-dək Azərbaycanın paytaxtı Bakıda keçirilməsi planlaşdırılan beynəlxalq konfransdır.

Müsabiqənin münsiflər heyəti yeddi nəfərdən ibarət idi: Elvin Abbasbəyli ( Xəzər Universitetinin müəllimi, Tərcümə mərkəzinin koordinatoru), Fialə Abdullayeva (ADU-nun Tərcümə departamentinin müdiri), İrina Orucova (ADU,Tərcümə departamentinin müəllimi) , Lidiya Həmidova (Xəzər Universitetinin müəllimi), İsrafil Xakiyev ("RAGİ MMC" Tərcümə Mərkəzinin direktoru), Nəsimi Həsənov ("Şəms" Tərcümə Mərkəzinin direktoru) və Zamirə Qurbanova (Xəzər Universitetinin müəllimi).

Münsiflər heyəti əvvəlcədən müəyyən edilmiş meyarlar əsasında iştirakçıları qiymətləndirdi. Müsabiqənin qalibləri aşağıdakılardır:

1-ci yer: Xəzər Universitetinin Tərcümə (ingilis dili) ixtisasının IV kurs bakalavr tələbəsi Gülsün Həmidova.

2-ci yer: Azərbaycan Dillər Universitetinin Tərcümə (ingilis dili) ixtisasının II kurs magistr tələbəsi Zəhra Əhədova.

3-cü yer: Bakı Slavyan Universitetinin Tərcümə (ingilis dili) ixtisasının IV kurs bakalavr tələbəsi Cavid Novruzov.

3-cü yer: Xəzər Universitetinin Tərcümə (ingilis dili) ixtisasının IV kurs bakalavr tələbəsi Xəyalə Məmmədova.

Qaliblərə kristal plaketlər, fərqlənənlərə sertifikat və təqdim olundu.

2024 Baku Climate Change Conference", or COP 29, is an international conference organized by the United Nations that scheduled to take place from November 11 to 22, 2024 in Baku, the capital of Azerbaijan.

The seven-member contest jury consisted of Elvin Abbasbayli (Coordinator of Center of Translation and Interpretation, Lecturer at Khazar University), Fiala Abdullayeva (Head of Translation Department, AUL), Irina Orujova (Lecturer in the Translation Department, AUL), Lidia Gamidova (Lecturer at Khazar University) Israfil Khakiyev (Director of the Translation Center "RAGI LLC"), Nasimi Hasanov (Director of the Translation Center "Shams") and Zamira Gurbanova (Lecturer at Khazar University).

The jury evaluated the participants based on predefined criteria. The winners of the contest are:

1st place: Gulsun Hamidova, a fourth-year bachelor student majoring in Translation (English) at Khazar University.

2nd place: Zahra Ahadova, a second-year master student majoring in Translation (English) at Azerbaijan University of Languages.

3rd place: Javid Novruzov, a fourth-year bachelor student majoring in Translation (English) at Baku Slavic University.

3rd place: Khayala Mammadova, a fourth-year bachelor student majoring in Translation (English) at Khazar University.

The winners were awarded certificates and crystal plaques.

# DOKTORANT TƏLƏBƏLƏR TƏRƏFİNDƏN KEÇİRİLƏN ONLAYN SEMİNARLAR

# ONLINE SEMINARS HELD BY PHD STUDENTS

May ayında İqtisadiyyat və menecment departamenti tərəfindən silsilə seminarlar təşkil olunub. Seminarlarda "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində Böyük Britaniyanın Exeter Universitetində və Türkiyə Respublikasının İstanbul Universitetində təhsil alan doktorantura tələbələri çıxış ediblər.

Mayın 6-da keçirilən seminarda Exeter Universitetinin doktorantura tələbəsi Əli Məmmədov "Yaşıl Texnologiya və Firma Performansı" mövzusunda öz araşdırmalarını tələbələrlə bölüşüb. O, Eko innovasiyanın (Eİ) firmanın həm ekoloji, həm də maliyyə göstəricilərinə müsbət təsirini vurğulayıb və öz tədqiqatında Eİ-yə keçidə kömək edən, yaxud mane olan əsas amillər haqqında məlumat verib.

Mayın 14-də baş tutan seminarda İstanbul Universitetinin doktorantı Murad Əliyev "İş mühitində iş-həyat balansı" mövzusunu tələbələrə və departamentin işçi heyətinə təqdim edib. O, müasir həyatda iş-həyat balansının vacib olduğunu söyləyib. Sonra Murad Əliyev işçilərin rifahını prioritetləşdirmək üçün müxtəlif şirkətlərin istifadə etdiyi fərqli texnikaları müzakirə edib.

Mayın 15-də isə İstanbul Universitetindən Məhəmməd Çərkəzov ekonometrik kontekstdə "Zaman sıraları"nın icmalı ilə çıxış edərək, zaman sıralarının təhlilində əsas mövzular haqqında tələbələri maarifləndirib. Sonra o, kointeqrasiya əlaqələrini müəyyən etmək üçün vacib olan müxtəlif statistik testlərdən istifadə qaydaları haqqında məlumat paylaşıb.

İnteraktiv formada keçən hər üç seminarda məruzəçilər, həmçinin İqtisadiyyat və menecment departamentinin tələbələri arasında müzakirələr aparılıb.

In May the Department of Economics and Management organized three online seminars. The speakers were PhD students studying at Exeter University and Istanbul University within the framework of the "State Program for Increasing the International Competitiveness of the Higher Education System in the Republic of Azerbaijan for 2019-2023".

On May 6, Ali Mammadov, a doctoral student at Exeter University shared his findings on "Green Technology and Firm Performance". He emphasized the positive influence of Eco innovation on both environmental and financial performance of a firm. In his study, Mammadov reported the main factors that help or hinder the transition to EI.

On May 14, Murad Aliyev, a doctoral student at Istanbul University, presented the topic "Work-life Balance in the Work Environment" to the students and staff of the department. He emphasised the importance of work-life balance in modern life. Then he discussed the various techniques that different companies use to prioritize employee well-being.

On May 15, Mahammad Cherkazov, a doctoral student at Istanbul University provided an overview of "time series" within the econometric context, enlightening students on foundational topics in time series analysis. Then he shared information on the use of various statistical tests that are important for identifying cointegrating relationships.

All three seminars fostered high interactivity through questions and discussions by students of the School of Economics and Management.

# DÖVLƏT AKADEMİK FİLARMONİYASINDA AŞIQ RAMİN QARAYEVİN "SAZIMDA-AVAZIMDA" ADLI SOLO KONSERTİ




*Ramin Qarayev* *Qorxmaz Tofiqoğlu*

# RAMIN GARAYEV'S SOLO CONCERT "IN MY SAZ, IN MY VOICE" AT THE STATE ACADEMIC PHILHARMONIC ORCHESTRA

Mayın 19-da Azərbaycan Dövlət Akademik Filarmoniyasında Borçalı aşıq məktəbinin istedadlı nümayəndələrindən biri, Xəzər Universitetinin müəllimi, Azərbaycanın aşıq sənətini dünyanın 17 ölkəsində təmsil etmiş aşıq Ramin Qarayevin "Sazımda-avazımda" adlı solo konserti keçirilmişdir.

On May 19, a solo concert In "My Saz, In My Voice" by Ramin Garayev, one of the talented representatives of the Borchali ashug school, a faculty member of Khazar University, who has represented Azerbaijan's ashug art in 17 countries of the world, was held at the Azerbaijan State Academic Philharmonic.







*Hamlet İsaxanlı*

Konsert Mədəniyyət Nazirliyinin və Xəzər Universitetinin dəstəyi ilə baş tutmuşdur.

Musiqi müşayiəti Xəzər Universitetinin Kamera orkestri (bədii rəhbər - universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova) və Elman İbrahiminin rəhbərliyi ilə "Bakı-Təbriz" (Güney Azərbaycan) qrupu tərəfindən olmuşdur.

Azərbaycanda ilk dəfə klassik aşıq havaları sazla yanaşı kamera orkestrinin ifasında səslənmiş, əslində, aşıq musiqisi ilə kamera musiqisinin sintezi, klassik havalar tam yeni üslubda təqdim olunmuşdur. Aşıq havalarının kamera orkestri üçün orkestrovkasını bəstəkar Sevda Rəhimova hazırlamışdır.

Konsertə yuxarıdakı məzmunda giriş sözü ilə başlayan tanınmış aparıcı Qorxmaz Tofiqoğlu

The concert was held with the support of the Ministry of Culture and Khazar University. The musical accompaniment was provided by the Khazar University Chamber Orchestra (artistic director - head of the university's Music and Art Department, honored teacher, pianist Zulfiya Sadigova) and the "Baku-Tabriz" (Southern Azerbaijan) group under the direction of Elman Ibrahimi.

This marked the first time in Azerbaijan where classical ashug melodies were performed by a chamber orchestra alongside the saz, blending ashug and chamber music in a novel manner. Sevda Rahimova orchestrated the ashug melodies for the chamber orchestra

The well-known host Gorkhmaz Tofiqoglu, who began the concert with the aforementioned



*Necdet Ünüvar*




sonra Xəzər Universitetnin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlını səhnəyə dəvət etdi. H.İsaxanlı sənət adamlarına və tamaşaçılara təqdim olunacaq konsertin əlamətdar cəhətlərindən söz açdı və yeni layihəni ərsəyə gətirən musiqiçilərə uğurlar arzuladı. Tədbirdə iştirak edən, Xəzər Universitetinin qonağı, Ankara Universitetinin rektoru Necdet Ünüvar da çıxış etdi.

Aşıq Ramin Qarayev "Osmanlı divanisi" (sözlər: Aşıq Ələsgər), "Cəlili" (sözlər: Qaraxan Əkbəroğlu), "Koroğlu dübeytisi" (sözlər: Aşıq Murad Niyazlı), "Şəşəngi" (sözlər: Xalq şairi Zəlimxan Yaqub), "Gödəkdonu" (sözlər: Hamlet İsaxanlı), "Mansırı" (sözlər: Aşıq Hüseyn Cavan), "Borçalı" (sözlər: Osman Əhmədoğlu), "Orta müxəmməs" (sözlər: Ağacan), "Qurbani" (sözlər və bəstə: Aşıq Kamandar Əfəndiyev) havalarını ifa etdi. Təbriz-Qaradağ aşıq mühitini təmsil edən tanınmış gənc sənətkar Elman İbrahiminin bəstələdiyi "Polad Təbriz" mahnısı bəstəkar və Aşıq Ramin Qarayevin birgə ifasında səsləndi. Konsertin fəxri qonağı olan Xalq artisti Alim Qasımov sözləri Məhəmmədhüseyn Şəhriyara məxsus olan "Şərili" havasını aşıq Ramin Qarayevlə birgə ifa etdi. Xalq artistinin ifasında Elman İbrahiminin İmadəddin Nəsiminin sözlərinə bəstələdiyi mahnı da səsləndi.

introduction, then invited the founder of Khazar University, Chairman of the Board of Directors and Trustees,Prof. Acad. Hamlet Isakhanli, to the stage.H. Isakhanli spoke about the unique aspects of the concert that would be presented to the artists and audience, and extended best wishes to the musicians who created the new project. Khazar University`s guest Nejdet Unuvar, the rector of Ankara University delivered a speech as well.

Ashug Ramin Garayev showcased a repertoire of saz airs including "Osmanli divanisi ("Ottomon Divan") (lyrics: Ashug Alasgar), "Jelili" (lyrics: Garakhan Akberoghlu), "Koroğlu dübeytisi" ("Koroghlu couplet") (lyrics: Ashug Murad Niyazlı), "Shashangi" (lyrics: People's Poet Zalimkhan Yagub), "Godekdonu" (lyrics: Hamlet Isakhanli), "Mansırı" (lyrics: Ashug Hüseyin Javan), "Borchalı" (lyrics: Osman Ahmedoghlu), "Orta Mukhammas" (lyrics: Aghajan), "Gurbani" (lyrics and music: Ashug Kamandar Efendiyev). The concert also featured a joint performance of "Polad Tabriz" by composer Elman Ibrahimi and Ramin Garayev. People's artist Alim Gasimov, who was the guest of honor of the concert, performed "Sharili", the lyrics of which were written by Mahammadhuseyn Shahriyar, together with ashug Ramin Garayev. The song composed



Xəzər Universitetinin müəllimi Məhsəti Azaflı sözləri Mikayıl Azaflıya məxsus "Ordubadi" havasını ifa etdi.

Konsert iştirakçılar tərəfindən alqışlarla qarşılanmışdır.

by Elman Ibrahimi to the words of Imadaddin Nasimi was also performed by the people's artist.

Khazar University faculty member Mahsati Azafli performed the air "Ordubadi" with lyrics by Mikayil Azafli.

The audience greeted the concert with enthusiastic applause, marking it a success



## "XƏZƏR"Ə TƏŞƏKKÜR MƏKTUBU

## LETTER OF THANKS TO KHAZAR UNIVERSITY

**Sabancı Üniversitesi**

**Sayın Prof.Dr. Hamlet İsakhanlı,**

17 Mayıs 2024 tarihinde gerçekleştirdiğimiz Bakü seyahetimiz sırasındaki nazik davetiniz ve mükemmel akşam yemeği için en içten şükranlarımı sunmak isterem.

Böyle değerli meslektaşlarımız arasında yer almak bizim için bir onurdur.

Saygılarımla,

Prof.Dr.Yusuf Leblebici
Rektör
20 Mayıs 2024

**Sabancı University**

**Dear Prof. Dr. Hamlet Isakhanli,**

I am deeply grateful for your kind invitation and the wonderful dinner during our visit to Baku on May 17, 2024. It is a privilege for us to be in the company of such distinguished colleagues.

Best regards,

Prof. Dr. Yusuf Leblebici
Rector
May 20, 2024

## UNİVERSİTETİN ƏMƏKDAŞI BEYNƏLXALQ KONFRANSDA

## KHAZAR UNIVERSITY EMPLOYEE AT INTERNATIONAL CONFERENCE

Xəzər Universitetinin əməkdaşı və psixologiya ixtisası üzrə təhsil alan tələbəsi Humay Hüseynova Türkiyənin Manisa şəhərində Xəzər Universiteti və Manisa Celal Bayar Universitinin birgə təşkilatçılığı ilə keçirilən "Dil, Ədəbiyyat və Dilçilik Fəlsəfəsi üzrə 4-cü Beynəlxalq Konfrans"da "Ölmək sənəti: müasir qadın yazıçıların əsərlərində intihar və mental problemlər" ("The art of dying: suicide and mental illness in modernist female authors' works") adlı məqalə ilə çıxış edib.

Məqalədə feminist ədəbiyyatın 3 roman nümunəsi təhlil edilib, intihar və ya intihara cəhd edən qadın obrazlarının mental problemləri və bu problemlərin arxasındakı səbəblər öyrənilib, müəlliflərin şəxsi həyatı və obrazlar arasında uyğunluq araşdırılıb.

Humay Huseynova, an employee of Khazar University and a psychology major, spoke at the "4th International Conference on Language, Literature, and Philosophy of Linguistics," jointly organized by Khazar University and Manisa Celal Bayar University in Manisa, Türkiye. She presented an article titled "The Art of Dying: Suicide and Mental Illness in Modernist Female Authors' Works.

The article analyzed three examples of feminist literature, exploring the mental problems of female characters who committed or attempted suicide and the underlying reasons for these issues. It also examined the parallels between the authors' personal lives and their characters.

# XƏZƏR UNİVERSİTETİ ELMİ ŞURASININ NÖVBƏTİ İCLASI

# NEXT MEETING OF KHAZAR UNIVERSITY SCIENTIFIC COUNCIL

Mayın 30-da Xəzər Universiteti Elmi Şurasının növbəti iclası keçirildi. İclası universitetin rektoru, Elmi Şuranın sədri Dos. İradə Xəlilova açaraq, gündəlikdəki məsələləri nəzərə çatdırdı.

İclasın birinci məsələsi olan doktorantların dissertasiya mövzularının adları və elmi rəhbərləri haqqında elmi katib Günel Bahəddinova məlumat verdi. Hər iki doktorant araşdıracaqları dissertasiya mövzularının aktuallığı və məqsədi barədə məlumat verdikdən sonra təkliflər nəzərə alınaraq, dissertasiya mövzularının adları və elmi rəhbərləri təsdiq olundu.

Gündəliyin ikinci məsələsi olan magistrlərin dissertasiya mövzularının adında dəyişiklik edilməsi ilə bağlı elmi katib bildirdi ki, bəzi tələbələr tədqiqat apardıqları müddətdə tədqiqatlarının istiqamətindən asılı olaraq dissertasiya mövzularının adında cüzi dəyişikliklərin olması ilə bağlı fakültəyə müraciət ediblər. Fakültə tərəfindən dissertasiya mövzularının Elmi Şuraya təqdim olunmuş yeni adları təsdiq edildi.

Gündəlikdəki növbəti məsələ olan fəlsəfə doktorluğu proqramı üzrə hazırlanan minimum imtahan proqramları və proqrama verilən rəylər haqqında elmi katibin məlumatı dinlənildi. Elmi Şura üzvləri tərəfindən proqramların tərtibatı ilə əlaqədar təkliflər irəli sürüldü və müvafiq qərar qəbul olundu.

Elmi Şuranın sonuncu məsələsi kimi Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyevin dosent adının verilməsi üçün Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılması ilə bağlı Elmi Şuraya müraciəti müzakirə olundu. Elmi Şuranın katibi iddiaçı haqqında ətraflı məlumat verdi. Gizli səsvermədən sonra Hesablama komissiyasınının sədri tərəfindən müsbət nəticə şura üzvlərinə açıqlandı və protokol tərtib edildi.

İclasın sonunda sədr növbəti Elmi Şuranın gündəliyində duracaq məsələlərlə bağlı məlumat verdi və bu məsələlərlə bağlı hazırlıqların aparılmasını tapşırdı.

On May 30, the next meeting of the Scientific Council of Khazar University was held. The meeting was opened by the rector of the university, the chairman of the Scientific Council, Assoc. Prof. Irada Khalilova, who brought the issues on the agenda into consideration. Scientific secretary Gunel Bahaddinova presented the first topic, detailing the dissertation subjects and scientific supervisors for doctoral students. After the doctoral students explained the relevance and objectives of their research, the dissertation topics and supervisors were approved with suggested amendments.

For the second agenda item, the scientific secretary reported that some students requested minor changes to their dissertation titles based on their research direction. The faculty approved these new dissertation titles submitted to the Scientific Council. The following agenda item involved the scientific secretary providing information on the minimum examination programs for the doctoral program and the feedback received. Council members suggested improvements to the program design, and a relevant decision was made.

As the last issue of the Scientific Council, Head of the Department of Political Sciences and Philosophy Dr. Orkhan Valiyev's application to the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan for the title of associate professor was discussed. The secretary of the Scientific Council gave detailed information about the plaintiff. After the secret voting, the positive result was announced to the council members by the chairman of the Accounting Commission and a protocol was drawn up. At the end of the meeting, the chairman gave information about the issues that will be on the agenda of the next Scientific Council and instructed to prepare for these issues.

# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ TİBBİ XİDMƏT İDARƏSİ İLƏ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ ARASINDA ƏMƏKDAŞLIQ MEMORANDUMU İMZALANIB



İkitərəfli görüşdə Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qonaqları salamlayıb, onları universitetdə görməkdən məmnunluğunu ifadə edib. Bildirib ki, Tibb fakültəsinin Türkiyənin bir sıra universitetləri ilə sıx əlaqələri mövcuddur. Fakültənin yuxarı kurs tələbələri hər il yay istehsalat təcrübələrinin böyük bir hissəsini Türkiyənin Trabzon, Erzincan, Erzurum, Kayseri, Qars və b. şəhərlərində yerləşən universitetlərin klinikalarında keçirlər.

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, tibb üzrə fəlsəfə doktoru, əməkdar həkim Ceyhun Məmmədov ölkədə tibbi kadr hazırlayan bir çox universitetlərlə imzaladıqları müqavilələr barədə məlumat verib. Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi- Təcrübi və Tədris Mərkəzinin rəisi, Milli Məclisin Səhiyyə Komitəsinin sədr müavini, tibb elmləri doktoru, əməkdar həkim Rəşad Mahmudov bildirib ki, bu gün əsası qoyulan əməkdaşlıq tibbin müxtəlif sahələrini əhatə edəcək müştərək elmi tədqiqatların ərsəyə gəlməsinə və beynəlxalq statuslu davamlı tibbi təhsil tədbirlərinin həyata keçirilməsinə şərait yaradacaq.

Sonra hər iki tərəf arasında əməkdaşlıq müqaviləsi imzalanıb. Müqavilədə həkim-rezidentlərin və ixtisasçıların mübadiləsini təmin etmək, onların təcrübə keçmələrinə şərait yaratmaq, müştərək seminar, simpozium, elmi konfrans, görüş, elmi-texniki sərgilər keçirmək, tədbirlərin təşkili və tibb sahəsinin müxtəlif aspektlərinə aid olan qanunvericiliyə, digər materiallara dair informasiya və müvafiq kadr potensialının yaradılması effektivliyinin monitorinqini keçirmək və qiymətləndirmək məsələləri əks olunub.

Elbrus İsayev qonaqlara hədiyyə təqdim edib, xatirə fotosu çəkdirilib.

Sonra ali təhsil ocağında Beyin ölümü diaqnozunun təyininə multidissiplinar yanaşma" adlı elmi konfrans öz işinə başlayıb. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, tibb üzrə fəlsəfə doktoru, əməkdar həkim Ceyhun Məmmədov Naxçıvan sağlamlıq günləri çərçivəsində Naxçıvanda olduqlarından məmnunluq duyduğunu bildirib. Qeyd edilib ki, Ulu öndərin vətəni olan Naxçıvanda bu cür tədbirlər keçirmək və universitetlə birgə belə aktual mövzuya dair konfransda iştirak etmək olduqca qürurvericidir

Naxçıvan MR səhiyyə naziri səlahiyyətlərini müvəqqəti icra edən Samiq Sadıxov muxtar respublikada səhiyyənin inkişafından, müasir dövrdə aparılan işlər barədə məlumat verib.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin İdarə Heyətinin sədri, tibb üzrə fəlsəfə doktoru Yeganə Abbasova, Azərbaycan Reanimatoloqlar və Anestezioloqlar Cəmiyyərinin sədri, tibb üzrə fəlsəfə doktoru Zəhra Vəzirova çıxış ediblər.

Konfransda İncəsənət fakültəsinin "Buta" instrumental ansamblının ifasında musiqi nömrələri səsləndirilib.

Konfransda iştirakçıların suallları cavablandırılıb, mövzular ətrafında müzakirələr aparılıb.

# NDU-NUN NÜMAYƏNDƏ HEYƏTİ TÜRKİYƏNİN QARADƏNİZ TEXNİKİ UNİVERSİTETİNDƏ



Türkiyənin Trabzon şəhərində Naxçıvan Dövlət Universiteti və Qaradəniz Texnik Universitetinin birgə təşkilatçılığı ilə keçirilən "II Beynəlxalq Apiterapiya və Təbiət Konqresi" çərçivəsində Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və nümayəndə heyəti Türkiyənin Qaradəniz Texniki Universitetində işgüzar səfərdə olublar.

Qaradəniz Texniki Universitetinin rektorluğunda keçirilən ikitərəfli görüşdə Qaradəniz Texniki Universitetinin rektoru, professor Hamdullah Çuvalcı qonaqları salamlayaraq universitetdə görməkdən məmnunluğunu bildirib. Rektor qurulmuş əməkdaşlıq çərçivəsində bir sıra sahələrdə praktik işlərin uğurlu nəticələrindən söz açaraq həyata keçirilən işləri yüksək qiymətləndirib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev də öz növbəsində burada olmaqdan məmnunluğunu ifadə edib, birgə əməkdaşlıq, ortaq elmi-tədqiqat fəaliyyəti, akademik və tələbə mobilliyi sayəsində aparılan işlər barədə məlumat verib. Hər iki universitet arasında informasiya texnologiyaları, incəsənət və tibb sahəsində uğurlu layihələrin həyata keçirilməsindən, Tibb fakültəsinin tələbə- müəllim heyətinin təcrübə proqramlarının əhəmiyyətindən danışıb.

Səfər müddətində Trabzon valisi Aziz Yıldırımın NDU rektoru Elbrus İsayev və nümayəndə heyəti ilə görüşü keçirilib. Görüşdə ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi akademik fəaliyyətdə də işbirliklərinin daha da genişləndirilməsi müzakirə olunub.

Daha sonra NDU-nun nümayəndə heyəti Qaradəniz Texniki Universitetinin Tibb fakültəsi və araşdırma xəstəxanasında olub. Tibb fakültəsinin dekanı, professor Neşe Kaklıkkaya, əsası 1973-cü ildə qurulan fakültənin kadr potensialı, fakültənin nəzdində fəaliyyət göstərən xəstəxana barədə ətraflı məlumat verib. Hər iki universitet arasında artıq neçə ildir uğurla həyata keçirilən əməkdaşlıq məsələlərində Tibb fakültələrinin işbirliklərinin xüsusi əhəmiyyətə malik olduğu diqqətə çatdırılıb.

Qaradəniz Texniki Universitetinin Fərabi xəstəxanasında olan NDU kollekti burada müasir texnologiyalarla zəngin ümumi cərrahiyyə və ümumi endoskopiya poliklinkaları, təcili tibbi yardım və müayinə şöbələri, klinik tədqiqatlar laboratoriyası, həkimlik uygulamaları və simulyasiya mərkəzində olublar.

Diş həkimliyi fakültəsində davam edən görüşdə Qaradəniz Texniki Universitetinin Diş fakültəsinin dekanı, professor Tanər Daşdəmir ilə birlikdə müvafiq kafedralarda, Protez laboratoriyası, Diş müayinəsi və müalicəsi kabinələrində olublar. Qonaqlar Stomatologiya üçün yeni tikilməkdə olan binanı gəzib, layihə ilə tanış olublar.

Əczaçılıq fakültəsinində keçirilən görüşdə dekan, professor Ufuk Özgenlə görüşən NDU kollektivi, universitetlərarası elmi əməkdaşlıq məsələlərini müzakirə ediblər. Onlar Farmakoloji texnoloji araşdırma laboratoriyası, Analitik kimya araşdırma laboratoriyasında olub, Türkiyənin qabaqcıl universitetlərindən olan Qaradəniz Texniki Universitetinin təcrübəsindən istifadə edilməsi məsələləri müzakirə olunub.

# TRABZON ŞƏHƏRİNDƏ "II BEYNƏLXALQ APİTERAPİYA VƏ TƏBİƏT KONQRESİ"

Ötən il Ulu öndər Heydər Əliyevin 100 illiyinə və Türkiyə Cümhuriyyətinin 100-cü ildönümə həsr olunmuş I Konqres bu il Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi münasibətilə təşkil olunub.

Konqresdən öncə qonaqlar arı məhsullarından ibarət sərgi-satışla tanış olublar.

Konqresin açılışında Trabzon valisi Aziz Yıldırım Türkiyədə arıçılıq texnologiyalarından, arıçılığın Türkiyənin iqtisadiyyatındakı yolundan, son 10 ildə apiterapiya sahəsində qazanılan uğurlardan danışıb. Türkiyənin arı pətəyi sayına görə dünya ölkələri arasında ən yüksək yerdə dayandığını qeyd edən professor ölkəsinin bal istehsalında dünya üzrə II olduğunu qeyd edib.

dəyərlərin, dövlətçiliyin hər zaman əsas götürdüyünü bildirib. Rektor çıxışında muxtariyyətin Naxçıvan üçün tarixi əhəmiyyətli məqamlarına toxunub və Zəngəzur koridoru ilə Türk birliyinin möhkəmləndirə biləcəyimizə sonsuz inamını ifadə edib. Elbrus İsayev birgə təşkil edilən tədbirlərin əhəmiyyətindən danışaraq konqresin işinə uğurlar arzulayıb.

Konqresdə Trabzon Arıçıları Yetişdirmə başqanı Yusif Aksoy, Türkiyə arıyetişdiricilər mərkəzi birliyinin başqanı Ziya Şahin çıxış ediblər.

13 ölkədən iştirakçıların qatıldığı konqresdə NDU-nun 30-dan çox əməkdaşı iştirak etməklə, ümumilikdə 97 elmi məruzə, təqdimatlar olub. Tədbirdə Qaradəniz Texniki Universitetinin Gözəl sənətlər bölümünün və NDU-nun incəsənət fakültəsinin əməkdaşlarının




Konqresin fəxri sədri, Qaradəniz Universitetinin rektoru Hamdullah Çuvalcı artıq II dəfədir qeyd olunan konqresin əhəmiyyətli məqamlarına toxunub. Rektor elmin tədqiqatla birləşməsinin daha səmərəli olacağına sonsuz inamını ifadə edib. Elm adamları arasında işbirliyi, ortaq təcrübələr əldə etməklə daha yaxşı nəticələrə sahib olmaq olar-deyə fikirlər səsləndirilib. H.Çuvalçı bu iki konqresin Naxçıvan Muxtar Respublikanın yaranmasının 100-cü ildönümünə həsr olumasının iki ölkə arasında qardaşlıq münasibətlərinin yüksək səviyyədə təşkilinin göstəricisi olduğunu bildirib.

Konqresin fəxri sədri, NDU-nun rektoru Elbrus İsayev iki ildir keçirilən konqreslərin əlamətdar günlərə həsr olunmasının xüsusi əhəmiyyət kəsb etdiyini, universitetlərimizin fəaliyyətində tarixi

ifasında səsləndirilən musiqi nömrələri hər kəsə xoş anlar yaşadıb. Konqresin Qala gecəsində NDU-nun rektoru Elbrus İsayev konqresin keçirilməsində əməyi olanlara təşəkkür edib və plaketlər təqdim edib. Sonra konqresin fəxri qonağı olan Elbrus İsayevə xatirə plaketi, xatirə sertifikatı təqdim olunub.

Konqresdə innovativ məhsul və bal yarışması təşkil olunub, dünyanın müxtəlif ölkələrindən innovativ məhsullar, monoflor, heteroflor və şan balları yarışmaya daxil edilib. Aparılan fiziki-kimyəvi analizlər və ekspert qiymətləndirmə nəticələrinə görə heteroflir nominasiyasında Naxçıvan Dövlət Universiteti əməkdaşları tərəfindən təqdim olunan "Naxçıvan balı" nümunəsi ən dəyərli ballar kateqoriyasına daxil olub və Bürünc mükafata layiq görülüb.

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ 19 MAY- ATATÜRKÜ ANMA, GƏNCLİK VƏ İDMAN BAYRAMI GÜNÜ QEYD OLUNUB





Bu münasibətlə universitetdə keçirilən tədbir şəhidlərin əziz xatirəsinin yad edilməsi, Azərbaycan və Türkiyə Respublikalarının Dövlət Himnlərinin səsləndirilməsi ilə başlayıb.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək müdrik şəxsiyyət Mustafa Kamal Atatürkün böyük tarixi xidmətlərindən danışıb.

Rektor Atatürkün işğala, zülmə boyun əyməyərək böyük türk millətini milli istiqlal və azadlıq mübarizəsi ruhunda birləşdirdiyini, Anadolunun azad edilməsinə rəhbərlik etdiyini deyib. Türklərin düşmən işğalına son qoymasından və cümhuriyyətin qurulmasında türk xalqının göstərdiyi şücaətdən bəhs edib.

Azərbaycan ilə Türkiyə arasında mehriban qardaşlıq münasibətlərindən danışan rektor ümummilli lider Heydər Əliyevin "Biz bir millət, iki dövlətik" kəlamını xatırladıb.

Atatürkün müstəqil yaşamaq iradəsinin məzlum xalqların azadlıq və istiqlal mübarizələrinə nümunə olduğunu bildirən rektor əlavə edib ki, Qazi Mustafa Kamal Atatürk ülvi hissləri ilə millətinə bağlı, istiqlal, müdafiə və sevgini hər şeydən üstün tutan bənzərsiz bir dövlət xadimidir.

Ölkələrimiz arasında olan qardaşlıq münasibətlərindən, Türkiyə universitetləri ilə yaradılan beynəlxalq əməkdaşlıq əlaqələrindən danışan Elbrus İsayev universitetdə qardaş ölkənin professor-müəllim heyətinin müxtəlif fakültələr üzrə keçdikləri dərslər barədə məlumat verib.

Tədbirdə Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı baş konsulu Asip Kaya çıxışında Türkiyə Cümhuriyyətinin yaranmasında və möhkəmlənməsində görkəmli şəxsiyyət Mustafa Kamal Atatürkün müstəsna rolundan bəhs edib.

Konsul vurğulayıb ki, Mustafa Kamal Atatürk çətin və mürəkkəb vəziyyətdə xalqı səfərbər edərək milli mübarizəyə başlayıb. Heç bir beynəlxalq gücün hegemonluğunu qəbul etməyən, yalnız xalqın iradəsinə, gücünə, mətinliyinə, fədakarlığına, qəhrəmanlığına arxalanan Mustafa Kamal Atatürk bu mübarizəni qələbə ilə başa çatdırıb.

Konsul çıxışında ölkələrarası münasibətlərin inkişafından, təhsil sahəsində qurulan əməkdaşlıqdan son dərəcə məmnun olduğunu bildirib.

Türkiyə-Azərbaycan qardaşlığının əbədi olduğunu xatırladan natiq əlamətdar gün münasibətilə tədbirin təşkilinə görə minnətdarlığını bildirib və iştirakçıları təbrik edib.

Tədbir tələbələrin hazırladığı maraqlı konsert proqramı ilə davam edib.

**Səadət Əliyeva**
*NDU Media və ictimaiyyətlə əlaqələr bölməsi*



# KOMANDİRİM ANAMLA ÇƏKDİRDİYİM ŞƏKLİ AD GÜNÜMDƏ MƏNƏ HƏDİYYƏ ETDİ

**İslam Hüseynov**

*Ehtiyyatda olan polkovnik*
*Xəzər Universitetinin əməkdaşı*

-Niyə pərişansan, Səlimov? - sualı məni düşüncələrimdən ayırdı. Qarşımda komandirim durmuşdu -kapitan Hüseynov. Cənab kapitan (orduda ona belə müraciət edirdik) Hüseynov bölük komandirimiz idi. Ortaboylu, sağlam cüssəli, mehriban baxışlı.

Bazar günü bölüyümüzdə adətən idman tədbirləri təşkil olunardı. Bayram günlərində hətta əsgər konsertləri də təşkil edilərdi bölükdə. Əlbəttə ki, bunlar bizim, həftə boyu xidmət aparmış əsgərlərin asudə vaxtalrını maraqlı etmək üçün təşkil olunardı. Bu gün də idman tədbiri olmuşdu.

Tez ayağa durdum. Farağat vəziyyətində düz durdum.

- Heç, cənab kapitan.

- Əyləş, əyləş, - deyərək, komandirim əlini çiynimə qoydu:

- Bilirəm ki, darıxırsan. Əsgər həyatının ilk ayları həmişə belə olur. Fikir eləmə, hər şey yaxşı olacaq, bölükdə mehriban kollektivimiz var, onlar da sənin qardaşların hesab olunur. Nə çətinliyin, narahatçılığın olsa baş çavuş Məmmədova de. Baş çavuşumuz ata qədər tələbkar, ana qədər mehriban insandır, - deyərək, komandir gülümsədi.

Bunu düz deyirdi. Baş çavuşumuz həqiqətən bizimlə öz övladları kmi davranırdı. Təklikdə ondan əsgər sözünü eşitməmişdik. Bizə oğlum deyərdi. Bunu eşidəndə fərəhlənərdim, axı, doğma atamdan bu şirin kəlməni çox az eşitmişdim. Amma qayda pozuntusu olanda üzünü görmə. O, hirslənəndə gizlənməyə siçan deşiyi axtarardıq...

Mən atasız böyümüşdüm. Hələ körpə vaxtımda atam avtomobil qəzasında həlak olmuşdu. Anam mənə həm ana olmuşdu, həm ata. Uşaq vaxtı ona hətta belə də deyərdim – anata. Qonşuluqda, məktəbdə atalı dostlarımı, uşaqları gördükdə qəribsəyərdim, atamı xatırlamaq istəyirdim, amma tez də təsəlli tapardım, anatam var və onunla dünyama baxıram hər zaman.

Rabitəçimiz kapitan Hüseynova yaxınlaşıb onun yuxarı komandanlıqla əlaqəyə girmək üçün kommutatora çağırıldığını məruzə etdi və komandirimiz əlini çiynimə vurub getdi. Əsgər yataqxanasının yanında skamyada oturub, yenidən xəyallara daldım.

Komandirim pərişan olmağımı nədən hiss etmişdi?-düşünürdüm.- Bəli, bir az fikirli idim. Sabah doğum günüm idi və düz 20 yaşım tamam olacaqdı.

Məncə, insan üçün doğum günü sadə bir gün deyil. Doğum günü bir həyatın yarandığı, bir ömür yolunun başlandığı zaman sayılır. Anam belə deyərdi və hər doğum günümü bir

xatirə kimi qeyd edərdi. Evimizdə bütün doğum günlərimdə çəkilmiş çəkillərim saxlanırdı. 19 şəkil, ilk üç şəkil atam, anam və mən, sonrakılar isə anamla mən.

İyirminci doğum günümün şəkli olmayacaqdı amma. Orduda şəkil çəkdirmək qadağan idi, döyüş mövqeyimiz, texnikalar məxfi sayılırdı. Ona görə düşündüm ki, ordudan tərxis olunanda hərbi formamı geyinib evdə şəkil çəkdirib digər şəkillərimin içinə qoyaram, düz olar,- deyə, özümə təsəlli verdim.

Düzünü desəm, darıxırdım. Əsas da, anam üçün. 3 ay idi ki, hərbi xidmətdəydim və hələ hərbi həyata tam öyrəşməmişdim. Amma, komandir demişkən, yəqin ki, əsgər həyatının ilk ayları həmişə belə olur. Növbətçinin uca səslə verdiyi axşam düzülüşünü bildirən komandası məni fikirdən ayırdı. Hamı kimi paltarımı düzəldib, sıra düzülüşünə tələsdim.

Hərbi xidmətin nə çətinliyi də olsa, maraqlı bir zaman parçasıdır ömürdə. Nahaqdan bunu kişilik məktəbi adlandırmırlar ki! Həqiqətən, burada dözümlülüyün, dostluğun, etibarın nə olduğunu anlayırsan. Burada çəkdiyin çətinliklərin vətən, xalq və doğmaları qorumaq üçün olduğunu başa düşürsən və bununla qürur duyursan. Burada öz yoldaşlarını, komandirlərini öz qanı və canı bahasına qorumaq, bir-birinə arxa durmaq, hətta öz həyatını əsgər yoldaşlarına etibar etmək kimi bir həyat məktəbi keçirsən. Bu hiss səndə xalqına, vətən torpağına olan bağlılığı qat-qat artırır. Hər halda, bunu duyanlar yaxşı bilər.

Səhər xidmət məni ağuşuna aldı, o qədər başım qarışdı ki, doğum günüm heç yadıma da düşmədi. Düzülüşlər, silahla təlim, təlim atışları, bir sözlə, adi bir əsgər gününün xronikası mənə hər şeyi unutdurdu. Əsas fikrim təlimdə yaxşı nəticə göstərmək, yoldaşlarımdan geri qalmamaq, komandirlərimin etimadını doğrultmaq idi. Axı, mən bu xalqın müdafiəçisi idim və bunun üçün təlimdə ən çətin sınaqlardan üzüağ çıxmalıydım.

Nahardan sonra təlimin yekunu olur. Yekunsa adətən sıra meydanında baş verir. Yağış yağdığı üçün bu gün yekun əsgər yataqxanasında keçirilirdi. Bölük komandirimiz daha yaxşı nəticə göstərmiş əsgərləri elan edir və sıra önünə çıxarırdı. Onların arasında mən də var idim. Hiss edirdim ki, fərəhdən üzüm yanır. Özümü bir növ qəhrəman kimi hiss edirdim. Komandirimizə - kapitan Hüseynova mənə verdiyi qiymətə görə minnətdarlıqla baxırdım. Nə yaxşı insandır, düşünürdüm.

Sonra hamı yenidən sırada öz yerini tutanda komandir məni sıra önündə saxladı.Ürəyim təlaşla döyündü və təəccüblə komandirə baxdım.

- Bu gün bizim əsgər Səlimovun doğum günüdür və bölüyümüz adından onu təbrik edir, xidmətində uğurlar arzulayırıq, - deyərək, kapitan Hüseynov sıra önündə mənə yaxınlaşdı. Əsgər yoldaşlarımın alqış sədaları altında o, qovluğundan çıxartdığı bir fotoşəkli mənə uzatdı, - bu da 20-ci şəkil, - deyib gülümsədikdə bir az karıxdım.

Bu, anamla birlikdə andiçmə mərasimində çəkdirdiyimiz şəkil idi. O zaman andiçmə mərasimində iştirak etmək üçün başqa valideynlərlə birlikdə anam da hərbi hissəyə gəlmişdi və görüşmüşdük. Onda fotoqraf şəkil də çəkmişdi, amma, şəkillər bizə verilməmişdi.

Komandirimiz həmin şəkli məhz 20-ci doğum günümdə verdi. Deməli, o, hər şeyi bilir, günlərimi, həyatımı, tariximi. Bəlkə elə belə də olmalı və komandir əsgəri haqda hər şeyi bilməlidir,- düşünürdüm?

Sıraya qayıdanda komandirimiz gözlərimdə o qədər ucaldı ki! Ən yaxın bir sirdaşım, ən doğma bir insanım kimi ucaldı.

Deyirlər yaxşı komandir olmaq çətindir. O, nə qədər tələbkar olsa da, tabeçiliyindəkilər ona öz doğması kimi güvənməli, onunla fəxr etməlidir, hətta öz canları və qanları bahasına qorumalıdır onu.

# AZƏRBAYCAN QUTABI DÜNYANIN ƏN YAXŞI UN MƏMULATLARI SIRASINDA İLK ONLUQDA



Ənənəvi reseptləri önə çıxarması ilə tanınan "Taste Atlas" ("Dad Atlası") 2024-cü ilin ən yaxşı 100 un məmulatı növünü müəyyən edib. Dünya mətbəxindən bir çox un məmulatlarının yer aldığı siyahıda Azərbaycan ilk 10-luqda yer tutub.

Bu barədə dad ekspertlərinin rəylərini və yeməklər haqqında aparılan araşdırmaları bir araya gətirən "Taste Atlas"-ın hesabatından aydın olub.

Reytinqə əsasən Azərbaycan qutabı altıncı yerdə qərarlaşıb.

Qeyd edək ki, siyahıda ilk yerdə Türkiyənin Bafra pidesi, ikinci yerdə isə Samsun pidesi gəlir. Ümumiyyətlə, siyahıda qardaş ölkənin səkkiz un məmulatı, o cümlədən gözleme (38), pide çörəyi (41), ramazan pidesi (43), terme pidesi (64), yuxa (70), bazlama (94) yer alıb.

**İlk 10 sıralama isə belədir:**

**1. Bafra pidesi / Türkiyə**
**2. Samsun pidesi / Türkiyə**
**3. "Roti canai" / Malayziya**
**4. "Butter Garlic Naan" / Hindistan**
**5. "Pan de bono" / Kolumbiya**
**6. Qutab / Azərbaycan**
**7. "Amritsari kulcha" / Hindistan**
**8. "Naan" / Hindistan**
**9. "Piadina Romagnola" / İtaliya**
**10. "Pao de queijo" / Braziliya**

*https://moderator.az/az/cemiyyet/772813/azerbaycan-qutabi-dunyanin-en-yaxsi-un-melumatlari-sirasinda-ilk-onluqda/*

**26 May 2024**

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. **http://e.dunyaschool.az/sagirdqebulu**
Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.
Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.
İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.
Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).
Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.
Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.
Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

Xəzər Universiteti

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?
**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi
- Musiqi müəllimliyi